QUMRU QÜDRƏT NAXÇIVANLI



# ŞAİRLƏR BİR MƏLƏKDİR

**Redaktor, İdeya və layihə rəhbəri, baş tərtibatçı: Vidadi Turan Ağdamlı- Azərbaycan və İraq-Türkmən Yazıçılar Birliyinin üzvü, şair publisist, Vətən, Azərbaycan bayrağı, Qarabağ Azərbaycandır!, Ulu Öndər, Ali Baş Komandan, Şərəfli ömür yolu, Qızıl qələm, Turan yolu, Vintsas, Ziyadar, Xalqın nüfuzlu ziyalısı, Dövrün Vətənpərvər şairi, Həkəri, Xurşidbanu Natəvan, Səməd Vurğun, Bayram Bayramov, Mustafa Museyiboğlu, Xəlil Rza Ulutürk diplomları ilə mükafatlandırılmışdır. Həkəri qəzetinin şöbə müdürü, Radio FM-in xüsusi müxbiri, YİN-in üzvüdür. 2023-cü ildə KİV tərəfindən "Heydər Əliyev" diplomu və medalı, "Azərbaycanın fəxri" diplomu və kuboku ilə təltif olunub.**

**Texniki redaktor: Mehri Ağdamlı-şair publisist, İrak-Türkmən Yazıçılar Birliyinin üzvü, Dövrün ziyalısı, Vətənpərvər şairə, Heydər Əliyev, Qızıl qələm, Ulu Öndər, Xəlil Rza Ulutürk, Azərbaycan bayrağı mükafatçısı. Ali Baş Komandan, Vətən, Səməd Vurğun, Vidadi-70, Vintsas, Ziyadar, Vidadi Turan Ağdamlı fəxri diplomlarının mükafatçısı, YİN-in üzvüdür.**

**2023-cü ildə KİV tərəfindən "Heydər Əliyev" diplomu və medalı, "Azərbaycanın fəxri" diplomu və kuboku ilə təltif olunub.**

**Korrektor : Təranə Tunar-şair publisist, Heydər Əliyev, Bayram Bayramov, Xurşidbanu Natəvan, Vidadi-70, Vintsas, Ziyadar, Vidadi Turan Ağdamlı və YİN-in Zəfər günü fəxri diplomlarının mükafatçısıdır. YİN-in Qaradağ r/n sədr müavinidir.**

**Dizayner: Fariz Məhərrəmov.**

**"Şairlər bir mələkdir " şeirlər kitabı Bakı "Maarif" nəşriyyatı, 2023. xxx səh.**

**"Maarif"**

**İSBN:**

# MÜƏLİF HAQQINDA

Əhmədova Qumru Teymur qızı 18 mart 1956-cı ildə NMR-ın Babək rayonunun Qoşa-Dizə kəndində anadan olub. Təxəllüsü Qumru Qüdrət Naxçıvanlıdı. AYB-nin üzvü, “Telli Sənəm” jurnalının xüsusi muxbiridi. O, 1973-cü ildə Babək qəsəbə tam orta məktəbinin onuncu sinfini bitirib. Hələ məktəbdə oxuduğu vaxtlardan şeirlər yazmış, “Göyərçin” jurnalında və “Azərbaycan gəncləri” qəzetində dərc etdirmişdir. 1975-ci ildə ailə qurmuş, üç övlad böyütmüşdür. Övladları ali təhsillidir. Bu illərdə ara-sıra şeirlər yazsada çap olunmamışdı. 1997-98-ci illərdə Naxçıvan radiosunda şeirləri müntəzəm olaraq səslənmişdir. 1999-cu ildə ilk dəfə “Ali Baş Komandan” və “Məni salma odlara” şeirləri dərc olunmuşdur. “Ali Baş Komandan” şeirinə görə o, Yazıçılar Birliyinə dəvət edilərək Hüseyn İbrahimovun kitabı ilə təltif olunmuşdur. 1999-cu ildən “Şərq qapısı”, “Şərurun səsi”, “Dedektiv”, “Ekspres”, “Naxçıvan” jurnal və qəzetlərində şeirləri çap olunmuşdur. 2005-ci ildə onun “Bir ürəyin nəğmələri” adlı ilk kitabı, ardıncada “Nakam eşqin ninnisi” adlı ikinci kitabı nəşr olunmuşdur. 2011-ci ildə “Yada sal məni”, “Məni bağışla”, 2021-ci ildə “Mənə qərib deməyin”, “Zəfərə addım-addım”, 2023-cü ildə “Günəşlə barışmışam” kitabları nəşr olunmuşdur. Onun haqqında Sona Teymurbəylinin “NMR-sında yazıb yaradan qadınlarımız” adlı elmi əsərində dərin məlumat verilmişdir. Onun Ulu Öndər haqqında yazdığı şeirləri Süleyman Rzazadənin “Zamana şöhrətdir sənin qüdrətin” adlı Ulu Öndərin 95 illiyinə həsr etdiyi kitabda dərc olunmuşdur. O, 2005-ci ildən Bakı şəhəri Buzovna qəsəbəsində ailəsi ilə birlikdə yaşayır. “Həyat bizi səsləyir”, “Sevgilim yuxunu dənizə danış”, “Həsrətin sonu”, “Tər çiçəklər”, “Gəlin gedək Ağdama”, “Zirvədəkilər”, “Qəhraman Şuşam”, “Söz çələngi”, “Yazarlar dünyası”, “Ömrün səhifələri”, “Sirli dünya”, “Xalqın müqəddəs oğlu” antologiyalarında şeirləri çap olunub. “Heydər Əli-

yev", "Azərbaycan bayrağı", "Naxçıvanın fəxri şairəsi", "Zəfər", "Vətənpərvər şairə", "Vidadi 70" diplomları ilə təitif olunub. 2023-cü ildə KİV tərəfindən "Heydər Əliyev»medalı ilə təltif olunub. 2023-cü ildə "Nakam eşqin ninnisi " adlı kitabı onun 2005-ci ildə çapdan çıxan ikinci kitabının təktar nəşridi. "Şairlər bir mələkdir" kitabı şairənin səkkizinci kitabıdır.

## ÖN SÖZ

Mən Əhmədova Qumru Teymur qızının "Şairlər bir mələkdir" kitabını oxuyub onu çapa hazırladım. Şairənin "Bir ürəyin nəğmələri", "Nakam eşqin ninnisi", "Yada sal məni", "Məni bağışla", "Mənə qərib deməyin", "Zəfərə addım-addım", "Günəşlə barışmışam" kitabları işıq üzü görüb. "Şairlər bir mələkdir" kitabı şairənin səkkizinci kitabıdır. Mən onun nəşr olunmuş kitablarında yazdıqlarını yenə də nəzərdən keçirdim. Həmişəki kimi şairənin yaradıcılığını bir neçə yerə bölmək olar. Kitabı diqqətlə oxudum. Onu deyə bilərəm ki, bu kitab da əvvəlki kitabları kimi gözəl bir əsərdir. Eyni zamanda bu əsər də yuxusuz gecələrin, gərgin axtarışların bəhrəsidir. Xüsusiylə dil-üslub xüsusiyyətləri çox xoşuma gəldi. Mən şairənin şeirlərini oxuduqca onun şeriyyət dünyasında tutduğu yolu açıq və aydın gördüm. Mənə elə gəlir ki, sairənin vətən, ana-ata və övlad sevgisiylə, ümumiyyətlə yazdığı seirlər müasir Azərbaycanımın hər bir gənc oxucusuna örnəkdi. Hər bir gənc bu şeirləri oxuduqca sevginin müqəddəsliyin duyur, vətən, ana-ata, övlad sevgisini anlayır və bu sevgiylə, ülvü hislərlə yaşayır, özündə məsulliyyət hiss edib müqəddəs ali sevgi yollarında addımlamağı bacarır. Bəzən oxucu bu misralarda ali sevginin həm şirinliyini, həm də acısını anlayır. Lazım gəlsə bu sevginin həsrəti ilə yanmağı bacarır. Onun şeirlərində vətən həsrəti, vətənə bağlılıq gözəl çalarlarla verilmişdir. O, öz yazıları ilə tez-tez xəyalən Qarabağ torpaqla-

rını dolanır. Qumru xanımın bu kitabı da mənə elə gəlir ki, çapa gedə bilər. Şairəyə bu yolda uğurlar və növbəti kitablarının çapa hazırlanmasını arzılayıram. Onun şəhid bacısının dili ilə yazdığı şeri mənim diqqətimi cəlb etdi:

***Önə əymə başını,***
***Əziz şəhid bacısı.***
***Tökmə gözün yaşını,***
***Əziz şəhid bacısı.***

***Bilirəm çox çətindi,***
***Sənə qardaş itkisi.***
***Bilki, bu ağır xəbər,***
***Qəmə saldı hər kəsi.***

***Bu dünya belə qalmaz,***
***Hər əsgər şəhid olmaz.***
***Şəhidlərin qanını,***
***Ordumuz yerdə qoymaz.***

***İgid idi qardaşın,***
***Uca eylədi başın.***
***Qardaşınla qürurlan,***
***Qurut gözünün yaşın.***

***O, ölməyib, yaşayır,***
***Şəhid adın daşıyir.***
***O, tək sənin deyilki,***
***Bacılar qardaşıdır.***

***Qoruyub öz xalqını,***
***Öz doğma torpağını.***

***Seçilmişlər içinə,***
***Həkk eyləyib adını!***

***Yetişib Qarabağa,***
***Qanın qatıb torpağa.***
***Hər kəs layiq görülməz,***
***Zirvəyə ucalmağa.***

***İnşəllah Allah verər,***
***Olar oğul övladın.***
***Övladına qoyarsan,***
***Yaşadar onun adın.***

***Doğular bir ər - igid,***
***Elçin adın daşıyar.***
***Dayısının adıyla,***
***Amalıyla yaşayar.***

***Qoy xar olsun yağılar,***
***Çox Elçinlər gələcək...***
***Üçrəngli bayrağımız,***
***Daima yüksələcək!***

***Qəhrəman Elçinidə,***
***Xalqım daim sevəçək.***
***Şəhidlər yaşayacaq,***
***Şəhidlər ölməyəcək!...***

Və yaxud Qarabağ bizimdir deyə şairə car çəkir:

***Yenə baş qaldırdı yağı - düşmənlər,***
***Yenə də dilləndi toplar, güllələr,***
***Yenə də qüssəyə büründü ellər.***

*Yenə də ah- nalə göylərə qalxdı,*
*Yenə də gözlərdən qanlı yaş axdı.*

*Yenə çiyinlərdə tabutlar gəlir ,*
*Yenə də ah- nalə qəlbləri dəlir,*
*Yenə də neçə gənc ana, mələyir.*
*Yenə şəkillərdən mərd, igid baxır,*
*Yenə də gözlərdən qanlı yaş axır.*

*Yenə də neçə qaş tarım çəkilir,*
*Yenə el ağlayır, göz yaşın silir,*
*Yenə də şəkildən bir igid gülür.*
*O gülər gözlərdən ildırım çaxır,*
*Yenə də gözlərdən qanlı yaş axır.*

*Yenə xiyabana axışır elim,*
*Yenə pərişandı neçə tər gəlin,*
*Vətənçün can verən mərd- igidlərin.*
*Anası döşünə "Xarıgül" taxır,*
*Yenə də gözlərdən qanlı yaş axır.*

*Bir çox itki verib, qələbə çaldıq,*
*Xocalı şəhərin axır ki, aldıq!*
*Şəhid zirvəsinə qalxıb ucaldıq.*
*İgidlər Qarabağa al bayraq taxır,*
*Kədər- sevinc yaşı birlikdə axır.*

*Qarabağ bizimdir əzəli, axır !*
*Qarabağ bizimdir əzəli, axır!!!*

Başqa bir şerində ay şair qardaş qəmdən yazma deyib car çəkir:

*Şair, yenə qəm alıbdır üzünü,*
*Sızıldadır, qəm ağladır sözünü,*
*Bilmirəm ki, kim ağladıb gözünü,*
*Sözlərindən qəm süzülür, ay şair!*

*Bəlkə vaxtsız həyatına yel əsib,*
*Bəlkə namərd yollarına sədd çəkib,*
*Həyat qara zülflərinə qar əkib,*
*Sözlərindən bəm süzülür, ay şair!*

*Söyləyirsən, məni öldür Yaradan,*
*Həyatım seçilmir artıq qaradan,*
*Dedin dərdlərimi bilmir ki, loğman,*
*Sözlərindən nəm süzülür, ay şair!*

*Qoy yetişsin yar, adanım dadına,*
*Yanmayasan birdə fələk oduna,*
*Heç yaraşmır qüssə sənin adına,*
*Sözlərindən dəm süzülsün, ay şair!*

*Mən istərəm, üzün gülsün hər zaman,*
*Kam alasan, yenə gözəl dünyadan,*
*Başında dayansın uca Yaradan,*
*Sözlərindən bal süzülsün, ay şair!*

*Qəm olmasın heç bir zaman həmdəmin,*
*Sevinc olsun hər bir zaman sərvətin,*
*Qardaşısan axı Qumru Qüdrətin.*
*Şeirdə qəmdən yazma, ay şair!*
*Qəm yazaraq məni üzmə, ay şair!*

Şairənin ailəsi və ailə məişət mövzüsunda yazdığı şeirlərdə çox yerində yazılmış şeirlərdi. O, qardaşına müracət edərək yazır.

*Nədir gözlərindən süzülən o yaş?*
*Dərdini gəl mənə aç, söylə qardaş.*
*Ömrün qabaqdadır ,sən eylə savaş,*
*Qoyma ki, dərd səni sındırsın qardaş.*

*Özünü sanırsan bəxtsiz, talesiz,*
*Qəm-qüssə üzündə eyləyibdi iz,*
*San ki, bir səhrada qalmısan susuz,*
*Qoyma ki, dərd səni sındırsın qardaş.*

*Yenə düşünürsən xəyala dalıb,*
*Həsrət saçlarına bəyaz ağ salıb,*
*Övladların səndən aralı qalıb,*
*Qoyma ki, dərd səni sındırsın qardaş.*

*Övladınçün alışıb alovun, közün,*
*Onlarla başlayıb, qurtarır sözün,*
*Özünün yadından çıxmısan özün,*
*Qoyma ki, dərd səni sındırsın qardaş.*

*Unutma ki, gözəl bir gün gələcək,*
*Səanində üzünə iqbal güləcək,*
*Övladların sənin qədrin biləcək,*
*Qoyma ki, dərd səni sındırsın qardaş.*

*Qabaqdadır hələ yaşamalı gün,*
*Yolunu gözləyir sənin toy-düyün,*
*Oğluna toy eylə, onunla öyün,*
*Qoyma ki, dərd səni sındırsın qardaş.*

*Səni başa düşər yəqin ki, yarın,*
*Yükünü çəkirsən sən övladların,*

*Vaxt olar yeyərsən onların barın,*
*Qoyma ki, dərd səni sındırsın qardaş.*

*Vidadi Turan Ağdamlı: Azərbaycan və İraq-Türkmən Yazıçılar Birliyinin üzvü. "Həkəri" qəzetinin şöbə müdürü, Radio FM-n xüsusi müxbiri.*

# QUMRU QÜDRƏT RUHUNUN KÖNÜL SEVDASI

Hər bir şairin öz ruhunun daxili dünyası var. Hər bir şairin öz ruhunun könül sevdası var. Daxili dünyanın qəhrini, sevincini yaradan şairin həyat imicini onun əsərlərlərində görmək mümkündür. Həyat aynasının mənəvi tərcihi, insanın həyat yaşantısının xarakterini aydınlaşdırmaqdır. Könül dünyasının mənəvi zənginliyini ortaya qoya bilən ruh semantikası şairin həyat ruhunun dolğun üzünü tam anlamıyla göstərir.

Qumru Qüdrətin poyeziyasının həyat fəlsəfəsi müasir həyatımızın insanının həyati- pisixologi obrazını ortaya qoyur:.

***Bulud tək tutulub, - o ay qabağın,***
***Qüssədən solubdu, lalə yanağın.***
***Yenə, sol- sağını bürüyüb ahın,***
***Qaşların çəkilmiş, bir kaman kimi,***
***Küskün baxışların yaxır aləmi..***

Vətən sevgisi, həyat sevgisinin üstündə olan bir sevgidir.. Vətən sevgisi sənət dünyasının ən cazibədar həyat sevgisidir. Vətən sevgisi dövlətçilik düşüncəsinin həyati imitisiyası kimi ən ciddi bir həyati yanaşmadır. Qumru Qüdrətin lirikasının ahəngini asiqmatik müstəviyə keçirən onun ictimai düçüncəsinin həyati interaktivlik sevgisi olan vətən sevgisidir.

Şairənin lirikasındakı həyati ünvanı məhz, vətən və onun insanıdır. İkinci Qarabağ savaşının həyat yanğısı şairin lirikasının özünəməxsus ictimai xarakteri ilə öz əksini tapmışdır. Şairin lirikasında istər şəhid adı olsun, istərsə də adi bir əsgər olsun...eyni sevgi ilə onların bədii obrazı yaradılmşdır.

***Gedirəm cəbhəyə, gül üzlü anam,***
***Gedirəm, düşməni yurdumdan qovam!***
***O mənfur yağının, ayağı altda,***
**İnləyən torpağı düşməndən alam!**

Lirika insan hisslərinin tərcümanı kimi daima öz mızmun gözəlliyi ilə fikrin həyatla bağlantısını reallaşdırır. Lirika həyatın duyğusal anlarının həyat imitisiyasını qəlblərə ötürən arzuların həyati idealizəsidir... Lirika həyatı izah edərkən insan duyğularının aşırı həyəcanlarını ifadə edən ruhun təntənəsidir...

Qumru Qüdrətin həyat lirikası həyatın fəlsəfi- ruhi izahının şərhini verə bilən lirikadır. Şairin könül duyğularının həyat imici, həyati həssasiyyəti oxucuyla paylaşmasıdır..:

***Sən yoxsan dünyamda onu bil ki mən,***
***Gülüstanı talan, bülbül kimiyəm,***
***Sənsiz yaşasamda, quru bir zəmi,***
***Zamansız saralan sünbül kimiyəm...***

Poeziyada həyatilik duyğusu güclü həyat məntiqi olan əsərlərdə səmimiyyətin ifadəsidir. Poeziyada müasirlik duyğusu zəruri olan həyat şərtlərinin yeni dünya düzənində yenilənməsinin həyat ifadəsidir. Poeziyada həyati realitəni inşa etmək, olduqca inandırıcı və könül duyğularının aşırı həyəcanlarının ifadəliliyidir.

Qumru Qüdrət Naxçıvanlının həyat lirikasının güclü həyat məntiqi var. Qumru Qüdrətin lirikasının özünəməxsus düşüncə tərzi onun həyati müasirliyini ehtiva edir. Qumru Qüdrətin həyat lirikası həyatı realizə edə bilən lirika kimi daima canlı insan duyğularının sevdasını əks etdirir:

***Haqq yolumu mən tapandan,***
***Kədər məndən qaçaq olub.***
***Allahıma tapınandan,***
**Ürəyimə sevgi dolub.**

Portret əsərləri yazmaq, şairdən duyarlılıq tələb edir. Portret əsərləri yazmaq, şairdən məsuliyyətli olmağı tələb edir... Ulu Öndər Heydər Əliyevin bədii obrazını yaratmaq olduqca şərəflidir. Ulu Öndər Heydər Əliyevin bədii obrazını yaratmaq olduqca heyrətamizdir. Ulu Öndər Heydər Əliyevin obrazını yaratmaq ustalıq istəyir. Qumru Qüdrətin yaratdığı Ulu Öndər Heydər Əliyevin obrazında oxucu qəlbinə işıq düşür. Qumru Qüdrətin yaratdığı Ulu Öndər Heydər Əliyevin obrazında canlılıq var. Şairənin yaratdığı Ulu Öndər Heydər Əliyevin bədii obrazında əbədilik görsənir.:

**Şanlı vətınimin igid övladı,**
***Dünyaya tanıtdın Azərbaycanı.***
***Neftini dünyaya çatdırmaq üçün,***
***Yazıb imzaladın, Bakı- Ceyhanı.***

***Görərək nə qədər xeyirli işlər,***
***Tarixə yazdırdın Heydər adını.***
***Rahat yat məzarda Ulu Öndərim,***
***Xoş günlər gözləyir, Azərbaycanı.***

Poeziya insanın könül dünyasının mənəvi tərcihidir.

Poeziya insanın ruhunun özləmimdən yaranan bədii incəsənətdir. Poeziya sözə vurğunluqdan yaranan müdriklik sənətidir.

Narahat qəlbin sevdasının həyat həyəcanı sözlə yaranır.

Həyat həqiqətlərini söyləmək şairin könül dünyasına rəng qatır. Gözəl düşüncənin həyat statusuna qəlb verir

icazəni. Qumru Qüdrət Naxçıvanlının yaratdığı lirik obrazların xarakterinin genişliyi oxucuda inam yaradır.:

***Hərdən sustalıram xəstələr kimi,***
***Qələmə sarılıb gəlirəm cana.***
***Anamdan yazıram, ya vətənimdən,***
***Yazıram can qurban Azərbaycana.***

***Qələmi əlimə aldığım zaman,***
***Dəftəri qarşıma qoyduğum zaman,***
***Dəyişib dönürəm, sanki, "dəli"yə,***
***Məni dindirməyin yazdığım zaman...***

Qumru Qüdrət vətən sevdası ilə yaşayıb- yaradan şairlərdəndir. Qumru Qüdrət həyat həqiqətlərini şeirdə üzə çıxara bilən həyat şairlərindəndir. Şairin lirikasının həyati- fəlsəfi xüsusiyyətlərini nəzərə alsaq, şairin lirikasının özünəməxsus duyğusallığını görmək mümkündür.

Şairin lirikasının ruh dünyasını görən oxucu həyat həqiqətlərinin ip ucunu əldə edir.

***Birdə uymayacam yalanlarına,***
***Cavab verməyəcəm suallarına,***
***Gözünü dikərək sən yollarıma,***
***Gözləmə, sən məni, gəlməyəcəyəm.***

Həyat insanlığın mənəvi dünyasının fikir özülüdür. Həyat yanaşması düzgün olan yerdə insanlıq var. Poetik həyat analitakisi məna çaları ilə seçilən əsərlərdə gözəllik var.

Qumru Qüdrət Naxçıvanlının lirikası həyatın könül lirikası kimi dəyərlidi... Qümru Qüdrət xanımın lirikasının həyat məfkurəsi həyatla birbaşa təmas qurmasıdır.

Uğurlar arzulayıram şairə xanıma.

***Hörmətlə: müəllim- filoloq Nəsib Abid***
***28.12.2022***



# BÜTÖV OLSUN AZƏRBAYCAN TORPAĞI

## MƏNİM QƏHRƏMANIM

Elçin İbrahimli 1997-ci il sentyabr ayının 26-da Naxçıvan MR Şərur rayonunun Yengicə kəndində anadan olmuşdur. 2004-cü ildə Naxçıvan MR Şərur rayonunun Yengicə kəndində tam orta məktəbə daxil olmuş, 2012-ci ilə qədər həmin məktəbdə təhsil almışdır.

2012-ci ildən 2015-ci ilə qədər təhsilini Heydər Əliyev adına hərbi liseydə davam etdirmişdir.

2015-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olmuş və 2019-cü ildə həmin məktəbi "istehkamçı" ixtisası üzrə bitirmişdir. Məktəbi bitirdikdən sonra ona "leytenant" hərbi rütbəsi verilmişdir.

2019-cu ildə xidmətə Tərtər rayonunda yerləşən "N" saylı hərbi hissədə taqım komandiri kimi başlamışdır. Göstərdiyi yüksək fəaliyyətə və idarəetmə qabiliyyətinə görə ona vaxtından əvvəl "baş leytenant" hərbi rütbəsi verilmişdir.

Elçin II Vətən Müharibəsində istirak etmişdir. 44 günlük müharibədə yüksək peşəkarlıq göstərərək üzərinə düşən çətin tapşırıqları bacarıqla yerinə yetirmiş və aşağıda göstərilən medallarla təltif olunmuşdur:

***Təltifləri:  Vətən müharibəsi iştirakcısı medalı, Suqovuşanın azad olunmasına görə medalı, Cəsur döyüşcü medalı, İgidliyə görə medal, Hərbi xidmətdə fərqlənməyə görə medal.***

2022-ci ildə 12-14 sentyabr tarixlərində Kəlbəcər istiqamətində gedən döyüş əməliyyatlarında da fəal istirak etmişdir.

2022-ci ildə Goraboy rayonunda yerləşən “N” saylı hərbi hissəyə bölük komandiri vəzifəsinə təyin olunmuşdur və şəhid zirvəsinə yüksələnədək həmin vəzifədə xidmət etmişdir.

2023-cü il sentyabrın 19-da lokal antiterror tədbirləri zamanı Ağdam –Ağdərə istiqamətində gedən döyüş əməliyyatında qəhrəmancasına şəhid olmuşdur.

Elçin İbrahimli Naxçıvan MR Şərur rayonunun Şəhidlər Xiyabanında dəfn olunmuşdur.

# QARABAĞ BİZİMDİR ƏZƏLİ, AXIR



***(İgid, mərd, qorxmaz şəhidimiz Baş Leytenan Elçin İbrahimlinin əziz xatirəsinə )***

Yenə baş qaldırdı yağı - düşmənlər,
Yenə də dilləndi toplar, güllələr,
Yenə də qüssəyə büründü ellər.
Yenə də ah- nalə göylərə qalxır,
Yenə də gözlərdən qanlı yaş axır.

Yenə çiyinlərdə tabutlar gəlir,
Yenə də ah- nalə qəlbləri dəlir,
Yenə də neçə gənc ana mələyir.
Yenə şəkillərdən mərd, igid baxır,
Yenə də gözlərdən qanlı yaş axır.

Yenə də neçə qaş tarım çəkilir,
Yenə el ağlayır, göz yaşın silir,
Yenə də şəkildən bir igid gülür.
O gülər gözlərdən ildırım çaxır,
Yenə də gözlərdən qanlı yaş axır.

Yenə xiyabana axışır elim,
Yenə pərişandı neçə tər gəlin,
Vətənçün can verən mərd- igidlərin.
Anası döşünə "Xarıgül" taxır,
Yenə də gözlərdən qanlı yaş axır.

Bir çox itki verib, qələbə çaldıq,
Xocalı şəhərin axır ki, aldıq!
Şəhid zirvəsinə qalxıb ucaldıq.
İgidlər Qarabağa al bayraq taxır,
Kədər- sevinc yaşı birlikdə axır.

Qarabağ bizimdir əzəli, axır !
Qarabağ bizimdir əzəli, axır!!!...

## MƏLƏK SİFƏTLİSƏN

***(N saylı hərbi hissə komandiri, baş lrytenant İbrahimli Elçin Zaur oğlunun əziz xagirəsinə.)***

Şəkillərdən elə baxdın üzümə,
Baxışından gələmmirəm özümə,
Necə şirin- şəkər qatəm sözümə,
Səni vəsf eyləyim əziz şəhidim.

Nə söləyim mən bilmirəm haqqında,
Azacıq qaytarım sənin haqqını.
Sifətindən nur tökülür Elçinim,
Mələk sifətlisən əziz şəhidim.

Sən döyüşüb, qan axıtdın torpağa,
Bükülərək səndə üçrəng bayrağa,

Tapşırıldın doğma, əziz torpağa,
Rəhmət deyim sənə, əziz şəhidim.

Məzarınız olub bir ziyarətgah,
Yazıram, edirəm bunları agah.
Analar qəlbində yer almısınız,
Əziz edib sizi, mehriban Allah.
Cənnət mələyisiz, əziz şəhidim.

Baxıram o gülər ala gözünə,
Salavat çəkirəm nurlu üzünə,
Qumru Qüdrət qurban şəhid sözünə.
Sənə yazdım bu şeri Elçinim,
Yerin nurla dolsun, əziz Şəhidim.

## BİZƏ ƏMANƏTDİR ŞƏHİD ANASI




Aslantək düşməni eylədi al-qan,
Qanla torpağını suladı şəhid.
Övladını verən vətənə qurban,
“Özümdə qurbanam vətənə”– dedi.
Belə bir qeyrətdir şəhid anası,
Bizə əmanətdir şəhid anası.

Dedi:- Balam mərddi, şirtək vuruşdu,
Düşmənə dağ qoydu, olsada şəhid.

Düşmən bağrın dəldi onun duruşu,
Qara saçlarını dümağ daradı.
Belə bir qeyrətdir şəhid anası,
Bizə əmanətdir şəhid anası.

Oğul böyütdümki,  qorusun bizi,
Boğazında qəhər, solğun bənizli,
"- Qarabağda qalıb oğlumun izi",
Qürurla söylədi, mətin dayandı.
Dönməz, dəyanətdir şəhid anası,
Bizə əmanətdir şəhid anası.

Ordumuz düşmənə qələbə çaldı,
Əsir torpaqları yağıdan aldı.
Qazi görən zaman göz yaşın silib,
Açıb qollarını boynuna saldı.
Heyrətdi, ismətdi şəhid anası,
Bizə əmanətdi şəhid anası.

Oğlunun çatmadı son nəfəsinə,
Həzin layla dedi öz körpəsinə,
Sevindi vətənin qələbəsinə,
Qürurla dayandı, himni oxudu.
Hünərdi, qeyrətdi şəhid anası,
Bizə əmanətdi şəhid anası.

Oğlu bir vüqardı, özü bir "dağdı",
Xalqı qarşısında o, üzü ağdı,
Şəhidlər ölməyir, övladı sağdı,
Şəhidlərin yeri cənnətməkandı.
Bizə fəxarətdir şəhid anası,
Bizə əmanətdir şəhd anası.

# MƏNİ "SƏNSİZ" DƏRDƏ SALDIN



***(Əziz şəhidimiz Baş Ieytenant  Elçin İbrahimlinin həyat yoldaşının dilindən )***

Məni qoyub niyə getdin?
Ey başımın qızıl tacı.
Gedişinlə doldurmusan,
Ürəyimə qüssə, acı.

Elə yola sən getmisən,
Dönməyinə yoxdu güman.
Məni bimar, zar etmisən,
Gözlərimi alıb duman.

Yollarına boylanıram,
Qayıdarsan dönüb bəlkə.
Gəlməyirsən odlanıram,
Gözlərimi alıb kölgə.

Məni sənsiz dərdə saldın,
Bu dərdimin əlacı yox,
Ürəyimi qüssə alıb,
Sağalmağa gümanım yox.

Ölümünlə barışmıram,
İnanmıram bu gedişə.

Səninlə yox, xəyalınla,
Danışıram gündüz, gecə.

Tək qalmaqdan mən qorxuram,
Ruhun mənə həyan olar.
Elçin, sənsiz darıxıram,
Halım sənə əyan olar.

Gecələri gəl yuxuma,
Qıyma sənsiz darıxım mən.
Gündüzləri xəyalınla,
Yanımda ol hər zaman sən.

## ƏZİZ ŞƏHİD BACISI




***(Əziz şəhidimiz Baş leytinant Elçin İbrahimlinin əziz xatirəsinə)***

Önə əymə başını,
Əziz şəhid bacısı.
Tökmə gözün yaşını,
Əziz şəhid bacısı.

Bilirəm çox çətindi,
Sənə qardaş itkisi.
Bilki, bu ağır xəbər,
Qəmə saldı hər kəsi.

Bu dünya belə qalmaz,
Hər əsgər şəhid olmaz.*
Şəhidlərin qanını,
Ordumuz yerdə qoymaz.

İgid idi qardaşın,
Uca eylədi başın.
Qardaşınla qürurlan,
Qurut gözünün yaşın.

O, ölməyib, yaşayır,
Şəhid adın daşıyır.
O, tək sənin deyilki,
Bacılar qardaşıdır.

Qoruyub öz xalqını,
Öz doğma torpağını.
Seçilmişlər içinə,
Həkk eyləyib adını!

Yetişib Qarabağa,
Qanın qatıb torpağa.
Hər kəs layiq görülməz,
Zirvəyə ucalmağa.

İnşəllah Allah verər,
Olar oğul övladın.

Övladına qoyarsan,
Yaşadar onun adın.

Doğular bir ər- igid,
Elçin adın daşıyar.
Dayısının adıyla,
Amalıyla yaşayar.

Qoy xar olsun yağılar,
Çox Elçinlər gələcək...
Üçrəngli bayrağımız,
Daima yüksələcək!

Qəhrəman Elçini də,
Xalqım daim sevəçək.
Şəhidlər yaşayacaq,
Şəhidlər ölməyəcək!...

## XALQIN ÖVLADIYAM, VƏTƏN ADIYAM

***(44 günlük vətən müharibəsində Şəhid olmuş Babək rayonunun şəhidi Məmmədov Pərviz Zahid oğlunun dilindən şəhidimizin əziz xatirəsinə. Allah cəmi şəhidlərimizə rəhmət eləsin.)***

Gedirəm cəbhəyə, gül üzlü anam,
Gedirəm düşməni yurdumdan qovam.
O, məntur yağının ayağı altda,
İnləyən torpağı düşməndən alam.

Ana xeyir-dua eylə sən mənə,
Qan udduracağam yağı düşmənə.
Qan içən düşmənlə şirtək vuruşub,
Layiq olacağam vətənə, sənə.

Mən vətən uğrunda keçərsəm candan,
Başını sən əymə, məğrur, dik dayan!
Torpağım uğrunda şəhid olarsam,
Sən igid balanla qürur duyarsan.

Ey gül üzlü anam, qazi olsamda,
Şuşa qalasına gedib çatsamda,
Ordumla birlikdə zəfər çalsamda,
Qalib əsgər kimi vətən adıyam.

Bayrağa bükülüb qayıtsamda mən,
Deyərsən sağ olsun, var olsun vətən!
Üçrəngli bayrağı alıb əlinə,
Deyərsən xar olsun, qoy yağı düşmən.

Olsamda mən sənin əziz övladın,
Məmmədov Pərviz olsada adım.
Mən indi vətənin, xalqın adıyam,
Azərbaycanımın mərd övladıyam.

Məzarım üstünə xalqım axanda,
Şəkillərdən gülüb, sənə baxanda.
Ey gül üzlü anam, himn oxunanda,
Təkcə sənin deyil, onu bil ki, mən,
Əlini köksünə qoyub dayanan,
Bütün xalqımızın ürəyindəyəm!..

## ŞƏHİDLƏRƏ QURBAN DEDİK

Biz gördükcə mediada, televizorda şəklinizi,
Üzülərək sizlər üçün dua etdik.
Neçə dəfə can, can dedik,
Yaza- yaza gah ah çəkdik,
Gah qarğadıq, gah da söydük.
Gah üz tutub Paşınyana hərbə kəsdik,
Bir əl saxla, dayan dedik.
Müharibəni qızışdıran,
Uzaq, yaxın yad ellərə.
Etdiyiniz əməllərdən,
Bəsdi çəkin, utan dedik.
Uyub özgə sözlərinə,
Qan axıtma düzlərimə.
Pərdəni sil gözlərindən,
Ey Paşinyan oyan dedik.
Gözlərindən pərdəni soy,
Daha bəsdi, sən qandan doy,
Gəl, sülhə gəl imzanı qoy.
Müharibə dayanıb de,
Eyləginən bəyan dedik.
Qoy birlikdə yaşasınlar,
Özgə etniq xalqlar kimi.
Söz deyən yox, dinc kəslərə,
Eyləyirik əyan dedik.
Sizlər üçün çox ağlayıb,
Əzizləyib, xatırlayıb.
Qürur duyub, şax dayanıb,
Siz vətənə qurban olduz.
Bizdə sizə qurban dedik,
Torpaqlarçün candan keçən,
Şəhidlərə qurban dedik,

# GƏLMİRSƏN GÜLÜM

*(Şəhid ailəsinin dilindən)*

Yenə də bir novruz gəldi yetişdi,
Yenə də evlərdə kökələr bişdi,
Yenə qiş yerini yazla dəyişdi.
Mən isə söylədim titrəyən səslə,
Sən niyə qayıdıb gəlmirsən gülüm?

Yenə də ulduzlar göydə sayrışdı,
Yenə neçə tonqal yandı, alışdı,
Yenə sevilənlər yarla qovuşdu.
Gözüm yolda qaldı, qulağım səsdə,
Sən niyə qapımı döymürsən gülüm?

Yenə bayram gəlir, hər yan çilçiraq,
Bu bayram nəşəsi evimdən uzaq,
Gözlərim yaş süzür, sanki bir bulaq.
Təbiət durubdur mənimlə qəsdə,
Sən niyə bunları bilmirsən gülüm?

Yenə hamı geyir bayram libası,
Məni sevindirmir bayram havası,
Sən şəhid olmusan, vətən balası.
Mən sənin hicrindən olmuşam xəstə,
Mərizin üstünə gəlmirsən gülüm?

Gözlərim yol çəkir, dikilib yola,
Baxıram arxaya, mən sağa- sola,
Uzaqdan gəlişin görəm nə ola.
Fikrim cəmlənibdi xəyalın üstə,
Sən niyə üzümə gülmürsən gülüm?

Xəyaldan ayılıb, gəlib özümə,
Baxıram yaş süzür mənim üzümə,
Qəbrin, sinə daşı dəyir dizimə.
Üz üstə düşmüşəm məzarın üstə,
Sən necə qayıdıb gələsən gülüm?

Sən qurban getmisən axı vətənə,
Mən necə qınayım, söz deyim sənə?
Mən də qurban dedim özümü sənə.
Özümü danlayıb, dedim ahəstə,
Sən necə qayıdıb gələsən gülüm?!
Yanında yer saxla cənnətdə mənə,
Mənim özüm sənə gələcəm gülüm...

## QARABAĞDA VAR QOXUM

***(Astara rayon Ərcivan kəndindən olan 18 yaşlı şəhid Sadiq Şahin oğlu Bağırzadənin əziz xatirəsinə )***

Yollanmışam mən orduya igidtək,
Qayıtmışam hüzüruna şəhidtək.
Gültək solub üzün sənin ay ana,
Doluxmusan, qaralmısan buludtək.

Döyüşlərdə pələng kimi olmuşam,
Neçə murdar düşmən leşi salmışam.
Arxayın ol övladından ay ana,
Can verərək  torpaqları almışam.

Murov dağın azad etdik duşməndən,
Qaytarmışıq doğma yurdu namərddən.
Sən qürur duy övladınla ay ana,
İgid kimi şəhid oldum inan mən.

Əziz anam yolmaginən saçını,
Ürəyində gizlətginən acını.
Mən şəhidəm, ölməmişəm ay ana,
Başına qoy məntək  şəhid tacını.

Yolun düşsə əgər Murov dağına,
Boylanarsan həm soluna, sağına.
Bilki orda ruhum gəzir ay ana,
Salam söylə orda şəhid oğluna,
Fatihə de şəhidlərin ruhuna.

Bilki gəzir doğma vətəndə ruhum,
Çəkilməz ki, Qarabağda var qoxum,
Sev, əzizlə şəhidləri ay ana,
Hüzur tapar onda mənim də ruhum.

Əziz anam yolmaginən saçını,
Ürəyində gizlətginən acını.
Mən şəhidəm ölməmişəm ay ana,
Başına qoy məntək şəhid tacını.

## BÜTÖV OLSUN AZƏRBAYCAN TORPAĞI

Gəzirəm şəhidlər xiyabanını,
Oxuyuram hər birinin adını.
Əmir, Aslan, Vəli, İlqar, Fərmayil,
Candan keçib, qoruyublar torpağı.

Canpoladda Naxçıvanın oğludur,
Torpağı uğrunda şəhid olubdur.
Sədərəyə hücum edəndə yağı,
Qanıyla qoruyub ana torpağı.

Çəkəmmirəm hər birinin adını,
Eşidirəm daş altdan fəryadını.
“Silinsin yurdumdan yağı ayağı,
Azad olsun Azərbaycan torpağı.”

On ildir ki axıdılır göz yaşı,
Göz yaşıyla yuyulur qəbir daşı.
Dil açıbdır şəhidlərin baş daşı,
“Qurtarın düşməndən ana torpağı.”

Azad edin yağı düşmən əlindən,
Alın Qarabağı siz ermənidən.
Kəlbəcər, Laçını, Şuşa qalasın,
Azad edin əsir olmuş torpağı.

Qumru istər rahat yatsın şəhidlər,
Yurdumdan qovulsun erməni itlər.
Torpağı qaytarsın igid, ərənlər,
Bütöv olsun Azərbaycan torpağı.

## GÖZÜNÜZ AYDIN ƏZİZ ŞƏHİDLƏR

Gözünüz aydın olsun əziz şəhidlər,
Qaytardı torpağı qalib ordumuz.
İndi sizə xoş xəbərlə gəlmişəm,
Rahat yatın, qoy şad olsun ruhunuz.

Ordumuz düşməni it kimi qovdu,
Qanınızı yerdə qoymadı ərlər.
Ruhunuz qarşısında mən baş əyirəm,
Vətənçün canını sipər edənlər!

Sərhədi qoruyur qalib ordumuz,
Gətirdim mən sizə gözəl bir soraq.

Şuşada, laçında həm Kəlbəcərdə,
Artıq dalğalanır uç rəngli bayraq!

Siz ey  Naxçıvanın igid erləri,
Yerdə qalmayıbdı artıq qanınız.
Bütöv Azərbaycanımın ilk şəhidləri,
Yaşayır yenə də xoş amalınız.

Bu mənim borcumdur əziz şəhidlər,
Yenə də gəlmişəm ziyarətinizə.
Hər dətə Naxçıvana gələndə yenə,
Gəlib xoş xəbərlər verəcəm sizə.

## TÜRKÜN MƏRD OĞLUDUR ƏRDOĞAN

Xalqını çox sevən müdrik bir insan,
Səmimi, mülayim,  çox da mehriban.
Millətin yolunda daş- kəsək olan,
Gördükdə, olubdur püskürən vulkan,
Türkün mərd oğludur Tayyib Ərdoğan.

Uşaqla uşaqdı, böyüklə böyük,
Daşıyır çiynində çox ağır bir yük,
Dünyaya tanıdıb, kimdir Ulu Türk.
Önündə durammaz heç bir xan-xaqan,
Türkün mərd oğludur Tayyib Ərdoğan.

Xalqını qoruyan bir qorxmaz rəhbər,
Düşmənlər önündə olub bir sipər,
Allahın adıdır dilində əzbər.
Tarixə düşəcək adıyla dövran,
Türkün mərd oğludur Tayyib Ərdoğan.

Düşmən qarşısında nəhəng ər kimi,
Susdurub hökmüylə nahaqq hakimi,
Türk- Azər dostluğun bir simvol kimi.
Bayraqtək zirvədə görüb hər zaman,
Türkün mərd oğludur Tayyib Ərdoğan.

Türk xalqı eyləyir ona etibar,
İnşallah yenə də o, rəhbər olar,
Xalqı qorumağa onun gücü var.
Yolundan çəkilsin yolunda duran,
Türkün mərd oğludur Tayyib Ərdoğan.

## BAYRAQTƏK UCADA OLSUN HƏMİŞƏ

Vətənim, torpağım, millətim sənsən,
Vətən çağıranda hazıram deyən,
Vətənə canını qurban eyləyən.
Onlara borcluyuq hər zaman bizlər,
Yaşasın igidlər, var olsun ərlər,
Vətənə can qurban deyən şəhidlər,
Bayraqtək ucada olsun həmişə.

Vətənə ürəkdən anamsan deyən,
Vətən dardda olsa köməyə gələn,
İgidtək vuruşub, igid tək ölən.
Kəfən əvəzinə bayraq geyənlər,
Bayrağa bukülüb geri dönənlər,
Vətənçün can verən, ölməz şəhidlər!
Bayraqtək ucada olsun həmişə,

Gecə-gündüz sayıq olan əsgərlər,
Sərhədi qoruyan çavuş, zabitlər,
Düşmənin aslantək dərsin verənlər.

Düşmənin leşini salan igidlər,
Vətəni anatək qoruyan kəslər,
Qürurla qələbə çalan ərənlər,
Bayraqtək ucada olsun həmişə,

Millətim, bunları yadda saxlayın,
Qazini görəndə ayaq saxlayın,
Onları bala tək siz qucaqlayın.
Şəhid anaları, igid qazilər,
Vətəni ürəkdən sevən hər kəslər,
Vətənçün canından keçən şəhidlər!
Bayraqtək ucada olsun həmişə,
Sərhədi qoruyan ər sərhədçilər,
Bizimçün hər zaman əzizdir onlar.

***12-04-2023***

## VƏTƏN HƏSRƏTİ

Qulaq asdım su səsinə,
Düşdüm yazmaq həvəsinə.
Təsir etdi bu səs mənim
Ürəyimin guşəsinə.

Yazdım şır- şır axan çaydan,
Gah o taydan, gah bu taydan.
Baxıb Araz çayına mən,
Yazdım bizə həsrət taydan.

Xəyal uçdu can Təbrizə,
Təbriz həsrət qalıb bizə.
Orda qalan Şəhriyarım,
“Heydər baba” yazdı bizə.

O tay Culfa, bu tay Culfa,
Ayrılıb düşüb ah- tufa.
Ayrı düşən, doğma ellər,
İllərdi ki, çəkir cəfa.

Həsrət çəkdi doğma elim,
Hicran çəkdi, soldu gülüm.
Həsrət qalıb öz dilinə,
Farsa döndü orda, dilim.

Xan Arazın o tay yanı,
Xan Arazın bu tay yanı.
Ayrı düşən doğma ellər,
Yazdı həsrətli bayatı.

"Xan Arazı ayırdılar,
Qara qumla doyurdular.
Ayrılmazdı doğma ellər,
Bizi zorla ayırdılar."

Önə çəkdim Xan Arazı,
Yada düşdü "Xan" avazı.
"Bülbülün"də həzin səsi,
Oxuyardı, Canəli, Qəndab,
Arif ilə Səkinə,
"Qarabağın şikəstəsi".

Fikirlərim uçub getdi,
Qarabağa gedib, yetdi.
Otuz ildi həsrətdəydik,
Bu ayrılıq artıq bitdi.

Milli ordum qalib oldu,
Düşmənləri yurddan qovdu.

Şükür olsun Allahıma,
Haqq nahaqqa zəfər çaldı.

Var olsun Ali Komandan,
Yurdu qurtardı yağıdan.
İndi bütün dünya bilir,
Bütöv oldu Azərbaycan!

Qayıtmışıq doğma yurda,
Toy- büsatdı, indi orda.
Rəhmət deyək, şəhidlərə,
Var ol deyək, Milli ordu.

İnşəAllah gün gələcək,
O tay, bu tay birləşəcək.
Şərq, qərb birləşəcək,
Xalqımın üzü güləcək.

***07- 10 – 2023***

## YER AĞLASIN, GÖY AĞLASIN

***(Toyu yasa dönən şəhid Turan Məhərrəmovun əziz xatirəsinə.)***

Bu gün gəldi vay xəbərin,
Yasa döndü toy səhərin.
Yer ağlasın, göy ağlasın,
Sənsiz qaldı, yarın sənin.

Səs yayıldı kənd Qımıra,
Bəzək vurmayın çadıra.
Bayraqlarla bəzəyin siz,
Şəhidimiz gəlir bura.

Yarın bulud kimi doldi,
Anan saçın, başın yoldu.
Sənsiz qalan bacıların,
Ahu kimi mələr oldu.

Atan səssiz donub baxdı,
Göz yaşları qəlbə axdı.
Ələ alıb al bayrağı,
Lal dinməzcə, ona baxdı.

Zəlil olsun düşmənlərin,
Yağı düşmən sevinməsin.
Aslanlartək vuruşaraq,
Şəhid oldun mərd əsgərim.

Əziz Turan, can şəhidim,
Mübarəkdir şəhadətin.
Bütün əziz şəhidlərtək,
Sakinisən, sən cənnətin.

Unudulmaz ki, şəhidlər,
Xatırlayar sizi ellər.
Əziz Turan buna inan,
Xalqımızın şəhidlərin,
Yaşadacaq Azərbaycan!

***18-09-2022***

## SƏN QALİB ƏSGƏRSƏN, ƏZİZ ŞƏHİDİM

***(Murova ilk bayrağı sancan şəhid Yusifov Elməddin Mahir oğlunun əziz xatirəsinə)***

Torpaq üstə tökərək al qanını,
Mələyə dönmüsən, əziz şəhidim.
Dünyaya çatdırdın şöhrət- şanını
Doğma vətənimin, əziz şəhidim.

Ağappaq qar üstə tökülən qana,
Mən özüm qurbanam, igid Elməddin.
Murovda ucalan al bayrağına,
Baş əyib duraram, əziz şəhidim.

Düşmənin içinə vəlvələ saldın,
Sən "Murov Qartalı" adını aldın,
Şəhid zirvəsinə qalxdın, ucaldın,
Adına qurbanam, əziz şəhidim.

Sənin vətən adlı dövlət, varın var,
Murov tək ucalan dağ vüqarın var,
Söz verib and içdin, əsgər andın var,
Əməl eylədin sən, anda şəhidim.

Mən necə söz deyim, əziz Elməddin?!
Müqəddəs ruhuna xoş getsin sözüm,
Vətənə can qurban verən igidim,
Adınız gələndə yaş süzür gözüm.

Sənin əyilməyən xoş amalına,
Mələkdən də gözəl, xoş camalına,

Üstünə salınmış o simvoluna,
Bu dünya heyrandı, əziz şəhidim.

İyirmi üç yaşında, can, şəhid olan,
Düşmənin içinə vəlvələ salan!
Ordumuzla birgə qələbə çalan.
Sən qalib əsgərsən, ölməz şəhidim,
Sən qalib əsgərsən, əziz Elməddin!

***16-02-2023***

## QƏLƏBƏNİ QAZANDIQ BİZ

***( ikinci vətən müharibəsi iştirakçısı mənim qonşumun kürəkəni əsgər Mirzəyev Sərvər Elsevər oğlunun qələbəmizdən sevinclə, ağız dolusu danışığından sonra onun dilindən yazmışam.***
***Bu idid insanın əsli Masallıdandır, amma Bakıxanov qəsəbəsində yaşayır)***

Yad əldəydi doğma yurdum,
Sayıq durdu milli ordum,
Əmr verdi komandanım,
Düşmənləri yurddan qovduq.

Qaytarmışıq torpaqları,
Dağ- dərəni, oylaqları.
Azad olan kənd, şəhərdə,
Sancdıq üçrəng bayraqları.

Rəhbərlə xalq birlik olduq,
Birləşib bir yumruq olduq.

Əsir düşən doğma yurddan,
Düşmənləri "ittək" qovduq.

Qələbəni qazandıq biz,
Azad oldu yurd yerimiz.
Tez yayıldı hər tərəfə,
Alqışlandı zəfərimiz.

Gur səslənir bax himnimiz,
Alqışlanır rəhbərimiz.
Rahat yatsın şəhidlərim,
Qanlarını almışıq biz.
Rahat yatsın öndərimiz,
Dünya bildi qalibik biz!

***20-11-2020***

## NİYƏ GƏLMİRSƏN?



***(İtkin əsgərin ailəsinin dilindən)***

Gözlərim yol çəkir, niyə gəlmirsən?
Gəlib qəm, kədəri niyə bölmürsən?
Sənsiz dözəmmirəm, niyə bilmirsən?

Mən burda qalmışam sənsiz, yiyəsiz,
Mən dözə bilmirəm səndən xəbərsiz.

Mənim bu halımı görən ağlayır,
Gəlmirsən, ah-naləm sinə dağlayır,
Gözümdən yaş süzür, seltək çağlayır.
Mən dəli oluram səndən xəbərsiz,
Mən dözə bilmirəm səndən xəbərsiz.

O gediş! Qayıdıb gəlmədin bir də,
Bilmirəm şəhidsən, ya əsirlikdə,
Saçlarım ağarıb bu iki ildə.
Kamana dönmüşəm, inlərəm sənsiz,
Mən dözə bilmirəm səndən xəbərsiz.

Bu qədər ah çəkmək, bəsti ta yetər,
Qayıt gəl, həsrəti, hicranı bitir,
Ya ölü, ya diri, qayıt gəl, yetər.
Qalmışam arada yesir, çarəsiz,
Mən dözə bilmirəm səndən xəbərsiz.

Sağsansa, bir xəbər göndər, nə olar,
Ahımı sevincə döndər nə olar,
Şəhidtək xəbərin gəlsə də olar.
Səni sevən kəsi qoyma çarəsiz,
Mən dözə bilmirəm səndən xəbərsiz.

Dön ki, yollarından yığılsın gözüm,
Belə ayrılığa mən necə dözüm?
Sən necə gəlirsən, qayıt gəl, gülüm.
Sən necə qayıtsan, qəbulsan şərtsiz,
Mən dözə bilmirəm səndən xəbərsiz.

***22-02-2023***

# GÜLƏRÜZLÜ ŞƏHİDİM

***(Əziz şəhidimiz Tağıyev Səbuhiyə həsr etdim)***

Qartal baxışların, süzgün gözlərin,
Baxdıqca üzümə yandırdı məni.
Səni vəsf etməyə yetmir sözlərim,
Ölümün bizləri üzdü, şəhidim.

Doğma vətənini sevdin ürəkdən,
Sərhəddə aslantək dayandın, durdun.
Torpağı qorudun yağı düşməndən,
Qara qaşlı, qara gözlü şəhidim.

Qorudun torpağı, axıtdın al-qan,
Düşmənin cavabın verib susdurdun.
Canını vətənə eylədin qurban,
Nur sifətli, gülərüzlü şəhidim.

Tağıyev Səbuhi Gündüz oğlu sən,
İgid aslanlartək şəhid olmusan.
Səni qarşıladı doğma Naxçıvan,
Yoluna gül, çiçək düzdü, şəhidim.

Bütün xalq səninçün söylədi can, can,
Yanağa göz yaşı süzdü, şəhidim.
Qumru Qüdrət oldu sənin bir anan,
Varağa sözləri düzdü, şəhidim,
Yazaraq göz yaşı süzdü, şəhidim.

***11-04-2023***

## ŞAD YAŞA VƏTƏN

***(Bu şeir Xankəndi alınmamışdan qabaq yazılıb, ardı isə bu gün yazıldı)***

Qanla suvarmışıq biz Qarabağı,
Lalə rəngindədir vətən torpağı.
Səmada yellənir yağı bayrağı,
Azərbaycan bayrağı utanır, vətən!

Lalənin rəngində açır, hər çiçək,
Çiçəyin üstündə görünmür böçək,
Qönçədən çıxmağa utanır ləçək,
Bənövşədə rəngin dəyişib, vətən!

Əldə gül tutmağa gənclər utanır,
Görüşə tələsmir, durur, dayanır,
Tərəddüd eyləyir, qəsdən yubanır,
Gənclər toy- büsatdan utanır, vətən!

Hələ qulaqdaykən toyunun səsi,
Atasız qalıbdı ağlar körpəsi,
Viranəyə dönsün yağı ölkəsi,
Sənin üzün gülsün, inşəllah, vətən!
**Amin.**

***12-08-2023***

***(Ardı tam qələbədən sonra yazılıb.)***

Qalxdılar ayağa igidlər, ərlər,
Silaha sarıldı ərlər, ərənlər.
Yağı düşmənlərin dərsini verdi,
(Ötuz illik) Əsir torpaqları qurtardı, vətən!

Şəhidlər qan tökdü, torpağa, daşa,
Vüqarla döyüşü vurdular başa,
Ordum zəfər çaldı, vətən şad yaşa,
Liderim söylədi, var olsun vətən!

Hələ də nə qədər igidlərim var,
Birləşib, yurduma cığır- iz salar,
Yenə də vətənim laləzar olar,
Ucalar bayrağım Xankənddə, vətən!

Hər yana yayılar yenə toy səsi,
Yenə də bərq vurar odlar ölkəsi,
Yenidən canlanar, gülər Qarabağ,
Yayılar ətrafa, toy- düyün səsi,
Səndə canlanarsan, gülərsən, vətən!

Budur biz almışıq, can Qarabağı,
Azad eyləmişik ana torpağı,
Daha bəzənəcək gəlin otağı.
Gənclərin sevinib, güləcək, vətən!
Neçə körpən  dünyaya gələcək, vətən!

Artıq biz çalmışıq tam qələbəni,
Qovub çıxarmışıq yağı-düşməni,
Ürəklə oxuyaq biz ta himnimi.
Qarabağ bizimdir,Lider demişkən,
Yaşasın Azərbaycan, şad yaşa vətən!

***25- 11-2023***




# MƏNİ MƏCNUN EDİB SALMA ÇÖLLƏRƏ

## GƏLƏCƏM SƏNƏ ÖZÜM

Qapqara gecələrdə,
Çəkilir mənim yuxum.
Yastığı qucaqlayıb,
Alıram sənin qoxun.

Gözümü yuman kimi,
Diksinib oyanıram.
Yay kimi gərilirəm,
Dartınıb dayanıram.

Qorxuram uşaq kimi,
Örtürəm pəncərəni.
Yağıram leysan kimi,
Aşıram bənd- bərəni .

Ağlayıb, sızlayıram,
Bayıra çıxmır ünüm.
Sənsiz qaldığım gündən,
Qaralıb aydın günüm.

Yolunu gözləməkdən,
Üşüyür mənim gözüm.
Qayıdıb gəlmirsən sən,
Gələcəm sənə özüm.

Sənin yolun dönməzdir,
Bilirəm yarım mənim.
Səninlə görüşməyə,
Göndərsin Tanrım məni!

## O, YAR MƏNİ

Xoş baxışla nəzər saldı,
Əqlimi başdan aldı
Niyə məndən ayrı qaldı ?
Yoxsa sevmir o, yar məni?

Bir baxışdan nələr oldr?
Ürəyimə sevgi doldu.
Özgəsiylə peyman qıldı,
Yoxsa sevmir o, yar məni?

Ürəyimdə min arzular,
Yar sevməsə rəngim solar.
Gözlərimdən axdı sular,
Yoxsa sevmir o, yar məni?

Gendən gəzsə el qınayar,
Yarı əlbət yar sınayar.
Hicranından qəlbim yanar,
Yoxsa sevmir o, yar məni?

Nazu- qəmzə eşq taladı,
Vüsal məndən iraq oldu.
Ürəyimə şübhə doldu,
Yoxsa sevmir o, yar məni?

## SƏN GETDİN

Sən getdin, çəməndə güllərim soldu,
Bağçamda yasəmən saçların yoldu.
Qızılgül ləçəyin tökdü hicrindən,
Həsrətdən lalənin yanağı soldu.

Sən getdin, getməyin qəlbimə dəydi,
O gündən bənövşə boynunu əydi.
Qargülü boylandı qarın altından,
Üzümə baxaraq gözlərin döydü.

Sən gütdin, elə bil ürəyim durdu,
Zanbaqlar əyilib boynunu burdu.
Qərənfil qəm ilə baxdı üzümə,
Nərgizlər utanıb mənə göz vurdu.

Sən getdin, süsənin ətri azaldı,
Qüssədən reyhanın rəngi bozardı.
Bağçamda badisəba büküldü vaxtsız,
Açmamış qönçəsin torpağa saldı.

Sən getdin, qurudu çiçəklər- güllər,
Ah - nalə qopardı şeyda bülbüllər.

Qumru quşu kəsdi öz nəğməsini,
Susaraq baxışdı şən anadillər.

Sən getdin, qəlbimə odlar qalandı,
Bağçamın gülləri soldu, talandı.
O vaxtdan susubdu şeyda bülbüllər,
Qəm ilə oxuyan, ötən nalandı.

Sən getdin, calandı ahlarım aha,
Ümidim qalmadı gözəl sabaha.
Qumruyam, qələmim-kağızım ağlar,
Sözlərim susubdur, coşmayır daha,
Təvəkkül edirəm uca Allaha!

## ŞEİRLƏR SEVƏNLƏRİNDİR

Deyirsiz kitabda yazılan hər şeir,
Elə şairlərin öz həyatıdır.
Oxucular bunu söyləyim bilin,
Yazdığım şeirlər beyin  barımdır.

Beynimdə ilişib qalan bircə söz,
Cücərib ağactək, pöhrələnibdir.
Ağacın verdiyi bahartək bir- bir,
Ağ kağız üstsnə səpələnibdir.

Yazdığım şeirin çoxu mənim yox,
Biri qohumundur, biri yadındır.
Birisi onundur, birisi sənin,
Hər biri şeiri sevənlərindir!

Toxunmayın mənim siz hisslərimə,
Sözlər çox incidib yaxar qəlbimi.
Dil uzatmayın mənim şeirlərimə,
İnçidə bilərsiz ilham pərimi.

Mənim duyğularım incədən, incə,
Yazıram birini qəmli görüncə.
Sevinirəm kimsə ürəkdən gülsə,
Sevinci qatıram həmin sevincə.

Yazıram vətənə sevgidəndə mən,
Yazıram zabitdən, qazi, şəhiddən.
Oğul qurban verən ata-anadan,
Yazıram ordumdan, qalib əsgərdən.

Bu kitab tək mənim həyatım deyil,
Burda öz xalqımın haqqı, payı var.
Kitabı diqqətlə oxuyan hər kəs,
Orda özün görər, özünü tapar.

Diqqətlə yanaşın şeirlərimə,
Şairi anlamaq, duymaq gərəkdir.
Toxunmayın mənim siz hisslərimə,
Hisslərim çox incə, çoxda kövrəkdir.

Hərdən dayananda sakitcə, səssiz,
Qövr edir, danışır mənim ürəyim.
Dindirməyin məni susduğum zaman,
Uçub gedə bilər ilham mələyim.

# SEVGİSİ YAŞAR

Dindirdim, qəlbindən ahlar süzüldü,
Danışdın, keçmişin iptək süzüldü.
Alıblar sevdiyin gözəli səndən,
Ah çəkdin, gözündən qan-yaş töküldü.

Sevdiyin gözəldən əlin üzülüb,
Kipriyin üstünə şəbnəm düzülüb,
Xatırladın yenə keçən günləri,
Gözündən buludtək leysan süzüldü.

Söyləyirsən vaxtsız qocalmışam mən,
Zaman saçlarıma salıbdı ağ dən.
Sevgimizi xəyanətlə bölüblər,
Sevgisiz həyatdan usanmışam mən.

Üstündən neçə il keçsə də inan,
Onun vüsalına yoxsa da güman.
Ayrılsa da səndən sevgili canan,
Sevgisi qəlbində yaşayar hər an.

Sevən yaşayırsa, sevgisi ölməz,
Sevgi ürəkdədir, heç vaxt silinməz.
Sevinməsin namərd, ölsün bədxahlıq,
Daim yaşayacaq, sevgi yenilməz.

## GÜL YENƏ

Gül yenə, dərd-qəmi çalış az eylə,
Danış ki, xoş səsin yayılsın elə,
Üzündə təbəssüm gəzsin naz ilə,
Qönçə dodaqların gültək açılsın.

Eşidib xoş səsin sevinsin dostlar,
Düşmənin bağrını qoy dəlsin ahlar,
Gül, yenə ömrünə gülsün ilk bahar,
Gülümsər gözündən kədər, qəm qaçsın.

Gül, sənin gülüşün incədən, incə,
Yorulmaq bilmə sən nə gündüz-gecə,
Yarımçıq işini bitir sevinclə,
O günəşüzündən şəfəq saçılsın.

Danış ki, dinləsin ellər sözünü,
Allahım qorusun sənin özünü,
Hər yerdə sən söylə sözün düzünü,
Həmişə haqq səsin qalxsın, ucalsın.

Qüdrətəm, mən sənə dilərəm düz yol,
Allahdan sevinci istərəm bol- bol,
Tutduğun işində daima var ol,
Gülki, gülüşünlə düşmən qocalsın.

## SƏNİ SEVDİM

Qara gözlü, çatma qaşlı,
Səni gördüm, ağlım çaşdı,
Sənin qəlbin niyə daşdı?
Səni sevdim, səni sevdim.

Sən götür çal telli sazın,
Söylə, gəlsin xoş avazın,
Qəmzə eylə çəkim nazın,
Səni sevdim, səni sevdim.

Məni eşqə salan zalım,
Qoy mən ölüm, burda qalım,
Ağrın mənə, ağrın alım,
Səni sevdim, səni sevdim.

Gülə aşiq şən bülbüləm,
Bağçamızda açan güləm,
Sən sevməsən, mən ölərəm,
Səni sevdim, səni sevdim.

Oda yandım eşqin üçün,
Yanır qəlbim, yanır içim,
Söylə səndən neçə keçim?
Səni sevdim, səni sevdim.

## MƏNİ MƏCNUN EDİB SALMA ÇÖLLƏRƏ

Mən sevdim, sən isə sevmədin məni.
Qəlbimə doldurdun qüssəni, qəmi,
"Dəli"yə döndərdin səni sevəni.
Eşqindən Əsli tək döndüm küllərə,
Məni Məcnun edib, saldın çöllərə.

Dolandım neçə il, yolunda durdum,
Yoluna göz dikib, boynumu burdum,
Səni sevdiyimi eyhamla vurdum.
Sözümü car edib, yaydın ellərə,
Məni Məcnun edib, saldın çöllərə.

Eşqinlə çırpındı, vurdu ürəyim,
Bilmədin ki, sənsən mənim gərəyim,
Daşlara çırpıldı arza- diləyim.
Hicrindən qar yağdı şəvə tellərə,
Məcnuntək güzarım düşdü çöllərə.

Neyləyim ki, düşdüm qara sevdaya,
Günlərim dolanıb döndü aylara,
İlləri ötürdüm mən saya-saya.
Yazıldı sənsiz illərim ömrümə,
Məcnuntək güzarım düşdü çöllərə.

Mənə bir çarə qıl uca Yaradan,
Göz yaşımı süzüb eylədim leysan,
Çöllərdə dolanıb, gəzdim sərgərdan.
Göz yaşım bənzəyir axan sellərə,
Məni Məcnun edib salma çöllərə.

Ey uca Allahım ver mənə səbir,
Mənimdə qəlbimi eylə bir dəmir,
Sevda nə olduğun  anlaya bilmir.
Ömrümü mən hədər verdim yellərə,
Məni Məcnun kimi salma çöllərə.

Diz vurub mən sənə açdım əlimi,
Allahım yox eylə mənim qəmimi,
Özün islah eylə sən bu  “dəli”ni.
Nahaqq bel bağladım boş ümüdlərə,
Yolumu sən yönəlt  sevdiyin yerə,
Məni Məcnun edib salma çöllərə.

***06-11-2023***

## DÖN, MƏNİ İNCİTMƏ

Məni atıb getdin ömrün şən çağı,
Söldürdün lalətək alma yanağı,
Mənə rəva görmə, sən, ağlamağı,
Dön geri, məni çox incitmə gülüm.

Səninlə əhd edib, murada çatdıq,
Hərdən sevinc tapıb, gah qəmə batdıq,
Taleyin əlində bir oyuncağıq,
Dön geri,  sən məni incitmə gülüm.

Əğyarın sözüylə üzürsən məni,
Qıyqacı nəzərlə suzürsən məni,
Uzaqdan izləyib, güdmə ki, məni.
Dön geri, sən məni incitmə gülüm.

Bilirəm sevirsən sən, məndən də çox,
Küsüb ayrılmağa beç bir səbəb yox,

İnsaf et nə olar, bir Allaha bax,
Dön geri, məni çox incitmə gülüm.

Nə qədər desələr mənə üzülmə,
Sənsizəm, qaranlıq çökür gözümə,
Qayıt, həyatımı güldür üzümə,
Dön geri, məni çox incitmə gülüm.

Dön yenə səadət gətir evimə,
Əllərini yetir mənim əlimə,
"Dönməyə üzüm yox" bir daha demə,
Dön geri, sən məni incitmə gülüm.

Sən dönsən səninlə güləcək üzüm,
Yoldan yığışacaq sevinclə gözüm.
Yoluna mən qurban olaram özüm.
Dön Qumru Qüdrəti incitmə gülüm,
Dön, səni sevəni  incitmə gülüm.

***25-05-2023***



# BİR GÖZƏL BÖYÜYÜR

## QƏLB SİRDAŞIM





***(Şairə Əhmədova Səriyyə Teymur qızı 15-12-1952-ci ildə*** **NMR-ın Babək rayonunun *Qoşa-Dizə kəndində anadan olub 01-12-2023 –cü ildə vəfat edib. Dünyasını dəyişən bacımın xatirəsinə ithaf edirəm)***

Əziz bacım “qəlb sirdaşım,
Məni elə məyus etdin.
Qurumaz ki, gözüm yaşı,
Məni ağlar qoyub getdin.

Sirdaşımdın axı mənim,
Ehtiyacım vardı sənə.
Bir çətinə düşən zaman,
Sığınırdım axı sənə.
Anam yoxdu bu dünyada,
Sən anamın əvəziydin.
Hamımızın böyüyüydün,
Sən atamın əvəziydin.
Ağlar gözlü bacıların,
Göz yaşını necə silim?
Boynu bükük qardaşların,
Sağ - soluna necə keçim?
Karıxıbdı övladların,
Mən bilmirəm nə eyləyim.
Nənəm hanı deyənlərə,
Mən nə deyim, nə söyləyim?
İsmayılın tezdən durub,
Soruşur ki nənəm hanı.
Səfa, Rəhman səssiz baxır,
Uşaqlara mən nə deyim?
Söz tapmıram, nə söyləyim,
Deyim gedib uzaqlara?
İnanmazlar buna axı.
Fatiməndə gözün dikib,
Gözlərimə baxır axı.
Fatimənin rəngi solub,
Baxammıram gözlərinə.
Rəmzi, Rəbbi boynun burub,
Baxammıram üzlərinə.
Fərid, Aysun yol gəliblər,
Səni yola salmaq üçün.
Murad qalıb uzaq eldə,
Çox darıxır sənin üçün.

Bax gəlibdi Gülşən, Günəş,
Çox sevdiyin Müslum nəvən.
Baxışlarla soruşurlar,
Niyə öldü mənim nənəm?
Axı ondan doymamışdıq.
Bu qədər çox suallara,
Söylə necə cavab verim?
Hökmüyyəni demirəm mən,
Heç bilmirəm gedib ona,
Mən nə cavab verəcəyəm.
Sən elə bir insan idin,
Böyük, uşaq sevib səni.
Bacı sənin bu  gedişin,
Həyətindən qovdu məni.
Axı necə bu həyətə
Sənsiz gəlib girim bacı?
Gedişinlə ürəyimə,
Doldu qüssə, kədər, acı.
Oyan, bircə gözünü aç,
Gör nə qədər sevənin var.
Son mənzilə (yola) salmaq üçün,
Toplaşıbdı  qohum, dostlar.
Yığılıbdı həyətinə,
Gör nə qədər səni sevən.
Bax gəlidbdi kürəkənin,
Yoxluğuna dözə bilmir.
Gəlinlərin bir kənarda
Göz yaşların gizli silir.
Çox üzülür qonum- qonşun,
Hamı səni tərif edir.
Qohum- quda,  baldız, bacı,
Sənin üçün ağı deyir.
Aç gözünü əziz bacım,

Bir dəfə də bax üzümə.
Qurban olum özüm sənin,
Söylədiyin son sözünə.
Sən son dətə “anam” dedin,
Süzgün baxdın gözlərimə.
Nə yaxşı yanındaydım,
Baxdım  süzgün gözlərinə.
Allahıma bunun üçün,
Çox təşəkkür eyləyirəm.
Son anında yanındaydım,
Buna şükür eyləyirəm.
Diləyirəm Allahımdan
Cənnət bağı olsun yerın.
Əziz dostlar saf qəlbidən,
Siz bacıma rəhmət deyin.

## NƏVƏM NƏZRİNƏ

***(Ad günündə 13 yaş)***

Söhbəti şipşirin, sözü məzəli,
Odur məhəbbətin ilki, əzəli,
Qoy tərif eyləyim belə gözəli.
Gözləri sürməli, qaşları vəsmə,
Tərif eyləyirəm, sözümü kəsmə.

Qönçə dodaqları, lalənin rəngi,
Sifəti elə bil bir gül çələngi,
Qoy yazım, pozmayın siz bu ahəngi.
Gözləri qapqara,qaşları vəsmə,
Tərif eyləyim, sözümü kəsmə.

Elə gülümsəyir, gözü süzülür,
Sevincdən yanağa şəbnəm düzülür,

Dişləri sanki, bir inci düzümü.
Gözləri sürməli, qaşları vəsmə,
Qoy tərif eyləyim, sözümü kəsmə.

Pəri tək astaca yerişi vardı,
Ahu tək cox gözəl duruşu vardı,
İncə təbəssümü, gülüşü vardı.
Gözləri qapqara , qaşları vəsmə,
Tərif eyləyirəm sözümü kəsmə.

Naz ilə gələndə bu gözəl pəri,
İşfəsi yandırır göyü, həm yeri,
Alnına düzülüb şəvə telləri.
Gözləri sürməli, qaşları vəsmə,
Tərif eyləyirəm, sözümü kəsmə.

Sizə tanıtdırım, bu  ayqabağı,
Nəvəm Nəzrindir bu, verim sorağı,
Onu tərif etdim M P Vaqif*  sayağı.
Gözləri qaradır, qaşları vəsmə,
Qoy tərif eyləyim, sözümü kəsmə.

On üç yaşındadır, vəsf etdiyim qız,
O, həmi dürüstdür, həm də açıqsöz,
Sifəti əsmərdi, özü qaragöz.
Təbiətdən gəlib, qaşları vəsmə,
Tərif eyləyirəm, sözümü kəsmə.

Boylanıb baxanda, hərdən qıyqacı,
Sanki xatırladır türfə turacı,
Nəzrin Cavidana gözəl bir bacı.
Qumru nənəsinin başının tacı,
Qoy tərif eyləyim, sözümü kəsmə.

Vaqiftək vəsf etdim oxucum, bezmə,
Gözəlləmə yazdım mən öz nəvəmə,
Oxuyub qiymət ver mənim şerimə.
Gözləri sürməli, qaşları vəsmə,
Şeri elə yazdım, bənzədi rəsmə.

***09-04 -2023***



# ALLAH VERƏN MƏLƏKLƏRİM



Bu dünyaya xoş gəldiniz,
Mənim gözəl- göyçəklərim.
Biri huri, biri pəri,
Allah verən mələklərim.

Ömrümün bu payız çağı,
Qönçələnən çiçəklərim.
Nəsibimin bəhrəsisiz,
Mənim körpə əkizlərim.

Evimizin bəzəyisiz,
Üəyimin dəyərisiz.
Atanızın mələkləri,
Ananızın  diləyisiz.

Xoş gəlmisiz evimizə,
Tale gülsün üzünüzə.
Şükr edirəm Allahıma,
Bəxş eyləyib sizi, bizə.

Tanrım kömək olsun sizə,
Ömür versin, çatın yüzə.

Məryəmimlə, Mikailim,
Layiq olun nəslimizə.
Qumru nənə arzu edir,
Layiq olun elimizə.

***07- 04 – 2023***

## ŞİRİN ƏBƏLFƏZ

***(Rəfiqəm Məlahət xanımın nəvəsinə)***

Bizim körpə Əbəlfəz,
Artıq çatıb üç yaşa.
Məlahət nənə, sizlə,
Yaşayır daşa - daşa.

Məsciddə dua edir,
Ona, Məryəm nənəsi.
Ərşə qalxıb, yüksəlir,
Nənənin “ Amin”səsi.

Şirin, körpə Əbəlfəz,
Tamam edir, üç yaşın.
Şirin- şirin danışır,
Qatır hər kəsin başın.

Körpə qaçır, yüyürür,
Ata- ana sevinir.
Hərdən “baba” deyəndə,
Babası fəxr eyləyir.

Bu körpənin gəlişi,
Sevindirir hər kəsi.

Onu təbrik eyləyir,
Onun Qumru nənəsi.

Dünyaya xoş gəlmisən,
Yazır, Əbəlfəz bala.
Səni bəd nəzərlərdən,
Qorusun Allah- Tala.

***22-12-2022***

## DOQQUZ YAŞLI KÖNÜLÜM

***( Könül qardaşımın nəvəsidir)***

Könülün var doqquz yaşı,
Qara gözlü bir maraldı.
Müəllimləri onu sevir,
Dərslərində çox fəaldı.

Yorulmadan çalışır o,
Hey beş alır dərslərindən.
Elə bil ki yarışır o,
Geri qalmır dostlarından.

Tədbirlərdə şeir deyir,
O, ürəklə, uca səslə.
Dərslərini hazırlayır,
Usanmadan çox həvəslə.

Apar(ı)cılıq da eyləyir,
O hər zaman tədbirlərdən.
Gör nə qədər şeir bilir,
Vətənpərvər igidlərdən.

Vətən haqda şeirləri,
Əzbərləyir sevə- sevə.
Üçrəng bayraq tutub əldə,
Şeir deyir şəhidlərə.

Qumru bibi bu marala,
Deyir xoşbəxt yaşa Könül.
Soyumuzu gələcəyə,
Layiq ilə daşı Könül.

***25-01-2023***

## BİZİM RƏHMAN

***( Qardaşımın nəvəsinə)***

Çox şirindi, çox da şıltaq,
Qara gözü, qaynar bulaq.
Dayanmayır o, bir yerdə,
Həm zirəkdir həm də qıvraq.

Parıldayır qara gözü,
Qara qaşlı, gülər üzlü,
Dayanmadan, dil- dıl ötür,
Heyran edir Rəhman bizi.

Üçə gedir Rəhman axı,
Vardı gözəl oxumağı,
Şeirləri əzbərləyib,
Ötüb keçir çox uşağı.

Vurub-çıxır, yüzü- mini,
Əzbər bilir öz himnini.

Dərslərindən o, baş alır,
Çox sevir müəllimini.

Qumru bibi deyir ona,
Dərslərindən, hey baş al sən.
Orta məktəb bitir Rəhman,
İnstituta qabul ol sən .

***05-10—2021***

## DUA ET

***(Anası xəstə olan qıza)***

Diz vur yerə əlini aç Allaha,
Sən bu işi gəl saxlama sabaha.
Mehribandır, ondan sən istə şəfa,
Xəstə üçün ancaq o verər şəfa,
Anasızlıq çox çətindir ay bala.

Gəl yol vermə sən bu qədər ah- tufa ,
Əziyyət çək, canına ver sən cəfa.
Üzünü tut ancaq yalvar Allaha,
Xəstə üçün ancaq o verər şəfa,
Anasızlıq çox çətindir , ay bala.

Pak olmaqçün sən alginən dəstəmaz ,
İki rükət sidq ürəklə qıl namaz.
Yaratdığın heç vaxt o , darda qoymaz,
Xəstə üçün ancaq o verər şəfa,
Anasızlıq çox çətindir ay bala.

Səhər sübhdən sən göz yaşı süz üzə,
Diz vur yerə, ağırlıq düşsün dizə,

De ki :- “Allah sən rəhm eylə bu qıza”,
Xəstə üçün ancaq o , verər şəfa,
Anasızlıq çox çətindir ay bala.

Erkən itirmişəm anamı məndə,
Sanki çıxır, ürək durmur sinəmdə.
Səninlə bir dua eylərəm məndə,
İnşəallah ki, Allahım verər şəfa,
Anasızlıq çox çətindir ay bala.

Çox gec olar , sən ölüncə yanarsan,
Bəlkə sənin səbəb düşər sənandan,
Dua eylə, tək Allahadır güman,
Xəstə üçün ancaq o, verər şəfa,
Anasızlıq çəx çətindir ay bala...

## PİSLİK EYLƏMƏ

Pislik pis adama qalıb həmişə,
Pisliyi özünə eyləmə peşə.
Əlindən gəlməsə xeyirxax bir iş,
İlan tək özünü çalar həmişə.

Çalış ki, yaxşılıq elə, sən yaşa,
Pislik ilə adın qalmasın qoşa.
Büdrəyib düşənin əlindən yapış,
Yıxılsa əlini tez atma daşa.

Dünyada nə etsən qarşına çıxar,
Pisliyə heç zaman sən çıxma qahmar.
Sən rəvac versən ki, bil ki, pisliyə,
Göz yaşına dönüb, üzündən axar.

Çalış ki dünyada yaxşılıq elə,
Adın çəkiləndə xoş gəlsin dilə.
Xalqın mərd oğlu tək yaşa dünyada,
Damla ol, sən qarış gur axan selə.

Xalqınla bir olsan xalq səni sevər,
Adın çəkiləndə min əhsən deyər.
Qumru da hər zaman belə düşünüb,
Mərd tək yaşayanı qardaşı bilər.

## GOŞMUR ÜRƏYİM

Çağlamır ilhamım,coşmur ürəyim,
Söz-sözə calamır,qoşmur ürəyim,
Allahdan bu oldu arzu diləyim,
Neyləyim həyatım rüzgar tək əsdi,
Yazdığım şeirlər çap olsun bəsdi.

Oxuya bilmədim cavanlığımda,
İndi mən neyləyim ahıl çağımda,
Köməyə çatmadı nalə,ahım da,
Neyləyim həyatım rüzgar tək əsdi,
Yazdığım şeirlər çap olsun bəsdi.

Çox da ki, çağlasın,coşsun ilhamım,
Qalxıb göy üzünə,yetişsin ahım,
Ucuz qiymətdə getmir matahım,
Bilmirəm bu məndə necə həvəsdi,
Yazdığım şeirlər çap olsun bəsdi.

Vətəndən,anadan,eşqdən yazmışam,
Neçə dəftər dolub rəfə qoymuşam,

Şair olmamışam,nakam qalmışam,
Kasıblıq hər zaman yolumu kəsdi,
Yazdığım şeirlər çap olsun bəsdi.

## BİR GÖZƏL BÖYÜYÜR

Bir gözəl böyüyür yanağı şehli,
Sutəti ayparə, Allahın sehri.
Gözləri Tanrının bir möcüzəsi,
Qaşları çəkilmiş qövsi- qüzehli.

Dodaqlar yenicə açılmış qönçə,
Yanaqlar lalədir, çiçəkdən incə.
Dişləri incitək görünür hərdən,
Təbəssüm üzündə hərdən gəzdikcə.

Bu gözəl qız mənim ciyərparəmdir,
Adı Hökmüyyədir, mənim qəlbimdir.
Allahın izniylə böyüyən bu qız,
Mənim urəyimdir, ilk qız nəvəmdir.

İlahi qüdrətdən qələm çəkibdir,
Bü qızın seyrinə dalıbdı aləm.
On altı yaşında olan bu gözəl,
Allah bəxş eyləyən gözəl bir sənəm.

Baxışı məstanə, gözləri süzgün,
İfalı yerində, əxlaqı düzgün.
Qumru da qələmi əlinə aldı,
Belə gözəlliyi vəsf eyləməkçün.

Belə gözəlliyi gördüyü zaman,
Allahın işinə olaraq heyran.

Allah qarşısında səcdə edərək,
Dedi şükür olsun sənə, Yaradan!

## ALLAHINDAN QORXMADI

***( Bu yazım bir qohumunu oğlu kimi bəsləyən , oğul böyüyəndən sonra ona xəyanət edən əməyini itirən oğulun zərər çəkmiş anasının dilindən yazılıb .)***

Dost dediyim məni vurdu arxadan,
Əzib keçdi duz- çörəyə baxmadan .
Zərbə vurdu çəkinmədi Allahdan,
O dünyadan , bu dünyadan qorxmadı.

Oğul deyib çəkdim yuxarı başa.
Şərik etdim hər gün yediyim aşa.
Verdiyim əməyi çıxardı boşa,
Əzib keçdi arxasına baxmadı.

Utanmadı , çəkinmədi heç nədən,
Əməl etdi heç ölçmədən, biçmədən.
Almayacaq xeyir-dua ta məndən,
Pak insanın ah-vayından qorxmadı.

Daşa dönüb sanki onun ürəyi,
Ayaqladı həp yediyi çörəyi.
Ta itirdi güvəndiyi kürəyi,
Olar- olmaz gözləmədi,baxmadı.

Allah etsin lənət belə adama,
Dara düşsə heç yetməsin dadına .
Vasil etsin cəhənnəmin oduna,
Allahı görmədi , ona baxmadı.

Ahıl yaşda bir dağ çəkdi sinəmə,
Dözəmmirəm artıq mən bu sitəmə.
Həvalə eylədim Allahım sənə,
Oxaylarım ürəyimdən çıxmadı.
Lənət olmuş, Allahını anmadı,
O dünyanın əzabından qorxmadı.

## VƏFA XANIMA

***(Sanatoriyada işləyən Vəfa adlı xanıma .Bu xanımı ora-ya ilk gəldiyim gündən çox fikirli , qaş-qabaqlı , keyfsiz görürdüm .Dözməyib bu şeri yazdım.)***

Bilmirəm ki gözəl, nə olub sənə ,
Belə dərin- dərin batmısan qəmə.
Kiçik təbəssümlə hərdən gülsənə,
Qara bulud kimi dolma əzizim.

Dünyanın bacınmı alıblar səndən?
Sevinci aralı salıblar səndən?
Bu qədər qəm süzmə gözəl üzündən,
Sevincsiz, nəşəsiz olma gözəlim.

Hər nəyin çatmırsa olacaq bir gün,
Tökülənin yeri dolacaq bir gün.
Həyatdan olma sən bu qədər küskün,
Vaxtsız açan gültək solma gözəlim.

Adın Vəfadırsa sən ol vəfalı,
Çalış bu dünyada sən sür səfanı.
Qəm süzüb heç zaman pozma əhvalı,
Dərdi ürəyinə salma, gözəlim.
Həyatda hər zaman özünü tox tut,

Keyfini təlx etmə , özünü şux tut.
Gənclik ötəridi, əlacı yoxdur,
Gənc ikən sən qoca olma gözəlim,
Dünyanı gözündən salma əzizim.

## MƏNİM ƏZİZ GÜLBACIM



39 gündürki, sən bizi tərk etmisən,
Gözümüzü ağladıb , qəlbi kövrək etmisən.
Bilsəkdə ki, əzizim axirətə yetmisən,
Bu bizə dağdı belə, sən belə tez getmisən.
Gözlərimiz  su tökür bil adında gələndə,
Udqunuruq hər zaman bil adın çəkiləndə.

Axı yaxşı bilirdin , çox sevirdik biz səni,
Qəlbimizə doldurdun, gedişinlə qüssəni.
Qəbul edə bilmirik, mənim əziz gülbacım,
Bu dünyada bir daha görməyəcəyik səni.
Gözlərimiz yaş süzür sənin adın gələndə,
Ürəyimiz titrəyir hər adın çəkiləndə .

Sən bizi tərk eylədin , heç əlvida demədən,
Neçə illər çalışdın, qoyub getdin qəfildən.
Bu gediş hamımızı eyləyibdir pərişan,

Ölümün qəfil oldu, bilmədik ki, biz nədən.
Gözlərimiz su tökür sənin adın gələndə,
Ürəyimiz titrəyir hər adın çəkiləndə.

Mənim əziz - sevimli , ey gülüzlü gülbacım,
Ayrılığa dözmürəm , qəlbimi yaxır acın.
Axı səni özümə mən ən yaxın bilmişəm ,
Sən idin həm sirdaşım, həmdə ki, əziz bacım .
Gözlərimdən yaş süzür sənin adın gələndə,
Ürəyim tir- tir əsir hər adın çəkiləndə.
***( Əhədini görəndə)***

Məni qərib ellərdə təkcə qoyub getmisən,
İstəmirəm inanım yoxsan , artıq bitmisən!?
Sən məni tərk edəli gecəm yox , gündüzüm yox,
Gedişinlə sən məni qəmə məhkum etmisən.
Gözlərimdən yaş süzür sənin adın gələndə,
Ürəyimiz titrəyir hər adın çəkiləndə.

Sənin bu gedişinə heç cürə alışmıram,
Dünya mənə dar gəlir dünyaya sığışmıram.
Gözlərim yolda qalıb , baxıram yollarına,
Sənin bu gedişinlə neynəyim barışmıram .
Bəzən elə susuram , kimsəylə danışmıram.
Gözlərimdən yaş süzür sənin adın gələndə,
Ürəyim tir- tir əsir hər adın çəkiləndə.

# MƏN TAPA BİLMİRƏM ÖZÜM - ÖZÜMÜ

***( Qardaşımın dilindən həyat yoldaşına, Ləyaqətin dünyasını dəyişdiyinin 25-ci günü.)***

Albomda baxıram şəkillərinə,
Göz yaşlarım axır yanaqlarıma .
Ahla sığar çəkdim qara telinə,
Əllərim titrəyir yanaqlarında.

Baxdıqca üzünə, doya bilmirəm,
O, gülər üzündən, nur sifətindən.
Albomu mən yerə qoya bilmirəm,
Dodaqlarım əsir,yar,xiffətindən.

Axtarıram səni 25 gündür,
Evdə, həyətimdə gəzirəm səni.
Gecələr mənimçün elə zülümdür,
Girib otağımda tapmıram səni.

Şəkildə baxıram ala gözünə,
Odlu baxışınla deyirsən? Nələr....
Gözümdən yaş süzür mənim üzümə,
Sevdiyim , mən sənsiz qalmışam mələr.

Sən məni yarıda buraxıb getdin,
Toplaya bilmirəm özüm- özümü.
Bu yaşımda məni sən yetim etdin,
Mən tapa bilmirəm yolu, izimi.

Sənsizəm, ürəyim sözlə doludur,
Mən kimə söyləyim indi sözümü?
Sənsizəm gözlərim ağlar, suludu,

İtirmişəm səni, səndə özümü.
Ruhumu özünlə aparmısan sən,
Mən tapa bilmirəm özüm - özümü.

***17-08-2023***

## ATAM GƏLİNİ



Atamın gəlini, gözəl gülbacım ,
Mənimçün olmuşdun səndə bir bacı.
Məni qərib eldə sənsiz buraxdın,
Sən getdin qəlbimi  yandırdı acın.

Gecələr fikrimdə səninlə yatıb,
Gündüz oyanıram anılarınla .
Gecələr royamda səni görürəm,
Tezdən danışıram xəyallarınla.

Çıxmırsan yadımdan bircə an belə ,
Mənimlə dolanıb, mənlə gəzirsən.
Sağ ikən bilməzdim bunu mən belə,
Mənimçün bu qədər, belə əzizsən.

Səni xatırlayıb düşündükcə mən,
Gözümün yaşları çağlayan seldi,

Gözümü silirəm kimsə görməsin ,
Gizli ağlayıram səni qəlbimdə.

Cəmalın gözümdən çəkilmir bir an ,
Deyirəm o gözəl gözünə qurban.
Dünyadan sən   belə tez gedişinlə ,
Bütün ailəni eylədin viran .

Fərzalı ortada qovaq tək gəzir.
Əhədin üzünə baxa bilmirəm .
Telli gözlərindən qanlı yaş süzür,
Fizzə uzaqdadı çata bilmirəm .

Əhmədin sifəti sap sarı, solub,
Məryəm nənə deyir səni  axtrır.
Könülün,Qumralın gözləri dolub,
Bütün qohum qonşu səni ağlayır.

Sən elə yaşadın elə köçdün ki,
Gedişin çox ağır oturdu bizə.
Bu gediş tayfanı eləüzdü ki,
Çətin gələ bilək biz özümüzə.

Üsyan eyləmirəm, ilahi sənə ,
Sən verdin, sən aldın , məsləhət sənin.
Əl açıb, üz  tutub  dilərəm səndən,
Nur ilə sən doldur onun məzarın.
Axirət dünyasın sən abad eylə,
Bağışla varsada onun günahın.

***Amin***

***09-08-2023***

# DEYİŞMƏ

***(Gözəl şairəmiz Qumru Qüdrət «mən yoxam» şeirinə şeirlə rəy yazmışdı, bəndəniz də şeirlə cavabladı və duet kimi alındı. Hər iki şeiri sizlərə təqdim edirəm.)***

***Qumru Qüdrət***
Şair belə baxma yenə qəm ilə,
Fikirlərin yığ bir yerə cəm elə.
Kükrəyərək bəndləri aş , dön selə,
Qoy sevincin dilə gəlsin, ağlama.

Dünya səni niyə üzübdü belə,
Həyatını vermə küləyə, yelə .
Don bülbülə , nəğmə oxu sən gülə ,
Qara geyib , yenə qara bağlama.

Bulud kimi gözlərini , qəm alıb,
Həyat qara tellərinə dən salıb.
Oturmusan, yenə fikrə nə dalıb?
Köklənərək qəm kökünə , çağlama .

Almayıblar səndən dünya bacını,
Salmaginən ürəyinə acını.
Sən incitmə qardaş , Qumru baçını ,
Qəmlə yazıb , urəyini dağlama.

Sən yazanda, sevinc ilə yaz, bir az,
Qəm, kədəri ürəyindən at,az bir az.
Dünya fani , gedər , heç kimə qalmaz ,
Yaz , yazanda sevinc ilə, ağlama,
Qəmdən yazıb , ürəkləri dağlama!

***Məmməd Qədir***
Qumru Qüdrət , içim elə virandı,
Bağrımın başını söküb ağlaram.
Qoparma yaramı, nolar, amandı,
Odlu göz yaşları töküb ağlaram.

Tərpənə bilmirəm, hər yanım suçdu,
Həyat fani imiş, ömürsə puçdu,
Ah, məni sevənlər quş olub uçdu,
Gözümü göylərə dikib ağlaram.

De necə toxdasın vardan yox olan,
Hər gecə əriyən, hər gün sıxılan,
Ağlamaz deyirlər özü yıxılan,
Yetim tək içimi çəkib ağlaram.

Günah içindəyəm, əfv edənim yox,
Könül yanğısını rəf edənim yox,
Ruhum çoxdan uçub, dəfn edənim yox,
Cismimi kəfənə büküb ağlaram.

Nə həyat yaşadım, nə ömür sürdüm,
Qurd kimi uladim, it olub hürdüm,
Bəndəyə sığınıb xəyanət gördüm,
Allahın rəhminə çöküb ağlaram...



# ŞAİR XALQIN GÖZÜDÜR

## MƏNİ ƏMİN EYLƏ



*(Həyat yoldaşıma)*

Hərdən bir nəzər sal çal saçlarıma,
Gözündə sevginin izini görüm.
Həvəsə gələrək alıb darağı,
Darayım,ağarmış saçımı hörüm.

Hərdən də sən bir az gülümsə mənə,
Gözündə, sönməyən közünü görüm.
Hərdən də gəl yapış, tut əllərimdən,
Məndə cavanlıqda özümü görüm.

Qayıdaq geriyə gedək bir anlıq,
Xatirələr alıb aparsın bizi.
Hərdən bir baxışaq iki gənc kimi,
Məhəbbətlə süzək bir- birimizi.

Xəyalən yollanaq,sevgi bağına,
Başımı söykəyim köksünə sənın.
Səndə boylanaraq solu- sağına,
Əllərini gəzdir telimdə mənim.

Yenə tıp-tıp vursun mənim ürəyim,
San ki, məhvərindən çıxacaq kimi.
Məni əmin eylə,mənim gərəyim,
Bilim ki, sevirsən əvvəlki kimi.

***11-11-2023***

## QƏLBİMƏ DƏYMİŞDİN



***(həyat yoldaşıma)***

Qəlbimə dəymişdin sən dünən axşam.
Məndə inciyərək küsmüşdüm yaman.
İndidə sağıma-soluma keçib,
Qoymursan bir sutka olsun sərtamam.

Yenə də sən mənim qarşımda dürüb,
Gözəl cəmalınla gülümsəyirsən.
Mənim ürəyimi qazanmaq üçün,
Sevgi dünyasına sən səsləyirsən.

Odlu baxışından alov tökülür,
San ki Günəş doğur, sübh-dan sökülür.
Gözündən eşq axır dolur qəlbimə,
Qəlbimi bürüyən duman çəkilir.

Xəyalım aparır məni uzağa,
Mən səni ilk dəfə gördüyüm çağa.
49 il ötüb, keçib o vaxtdan,

Mənə salam dedin o vaxt bir toyda ,
Titrəyən o səsin qalıb qulaqda.

Yenə gözlərindən məhəbbət yağır,
Yenə ala gözlər ,alışır, yanır.
Bizim bu tər-təmiz ,saf eşqimizdən,
Budaqda oxuyan quşlar utanır.

Biz uzun illərin yol yoldaşıyıq,
Ömrümüz keçsədə qarma-qarışıq.
Üç övlad böyüdüb , öyüd vermişik,
Onlar ömrümüzə olub yaraşıq.

“Nə olar bağışla” dediyin sözdən,
Diksinib ayrıldım xatirələrdən.
Gülümsər gözlərlə baxdım üzünə,
Dedim ki, kim deyir küsmüşəm səndən?
Qumruyam, mən küsə bilmərəm səndən.
Nə edim mən küsə bilmirəm səndən.

***29-12-2022***

# ŞAİR XALQIN GÖZÜDÜR

***(Şair Firudin Behzadın «Əlindən» şerinə nəzirə həmin şerdən bir bənd)***

***« kürsulərdən danışdıqca, danışdım.***
***Şeir deyib, söz əhlinə qarşdım.***
***Alovlanıb çox atəşə alışdım,***
***Nadanların , qanmazların əlindən».***

***FirudinBehzad***

Əziz şair , mənim əzizqardaşım,
İlhamındır sənin sadiq yoldaşın.
Hər soz üçün gəl qaraltma qanını,
Qələm, dəftər olsun sənin sirdaşın.

Nə qədər ki, coşur sənin ilhamın,
Sən yaz- yarad, heç bir kəslə işin yox.
Nadanlara, cahillərə baş qoşma,
Söz əhlinin hisslərinə sərhəd yox.

Söz-sənətə qiymət verən var hələ,
Söz əhlinə qiymət verən var hələ,
Haqq söyləyən, haqqı deyən kəslərin,
Halın, keyfin soruşanlar var hələ.

Haqq şairi elə haqqın özüdür,
Şeirləri, sözü haqqın sözüdür.
Xalqın ürəyindən keçəni deyən,
Xalqın deyən dili, görən gözüdür.

Şairin işidir alışıb yanmaq,
Hər zaman xalqının yanında olmaq.
Vətənçün öz əziz canından keçən,
Şəhidi mədh etmək, şəhidi anmaq.

Şair dilmancıdır doğma xalqının,
Sözünü söyləyir , haqq soraqlının.
O, öz təbi ilə, şeirləriylə,
Həmişə yanında olur haqlının.

Nə qədərki coşur sənin ilhamın,
Nə qədərki öz(ü)nə vardır inamın,
Sözünü de, heç bir kəsdən çəkinmə,
Səni qoruyacaq Uca Allahın!

***30-04-2023***

## GÖZƏL QƏLƏMİN VAR

***(Hörmətli eloğlum ,şair Firudin Behzadın «Ürək mənlə yola getmir» adlı şerinə cavab olaraq.)***

Şeyda bülbül ilə bəhs edən şair,
Bülbülə sevgidən dərs deyən şair,
Nadana, cahıiə « pəs» deyən şair,
Niyə ürəyilə yola getmir ki?

Allahaın coş verir, sözün bir inci,
Səni duymayandan nə küs, nə inci,
Şairlər içində sən də, bir inci,
Yrək niyə sənlə yola getmirki?

İdarə eyləyir beyin bədəni,
Yorulub, bezəndə « xıxla» dəvəni.

Sozün varsa soylə, yenə mədəni,
Ürək niyə sənlə yola getmir ki?

Gözəl qələmin var, qardaşım Behzad,
Keyfini təlx edib, eyləmə bərbad.
Candan artıq deyil, dünyada heç zad,
Ürək sənlə niyə yola getmir ki?

Belə qalmaz heç vaxt dünyanın işi,
Dəyişilir hər an, dünya gərdişi,
Qumru  «de ki» qurdalama, keçmişi,
Ürək kimdi  sənlə yola getmir ki,
Beynin gücü ona niyə yetmir ki?

Çoxları yazırlar ,bəli , bayağı,
Yazanda titrəmir əli, barmağı.
Şair, sən elə yaz, Sabir sayağı,
Oda qoy özü, öz yoluyla getsin,
Beyninin də gücü ürəyə yetsin,
Ürəyin də sənlə qoy yola getsin.

***06-05-2023***

# DUA EYLƏYƏRƏM

***(Şeirlərini sevə- sevə oxuduğum çox hörmətli FB dostum,dəyərli şair qardaşım Məmməd Qədirin» Canımla əlləşirəm» şeirinə nəzirə)***

Şair qardaş mən sənə
Eyləyərəm duanı,
Oxuyaram « Fələq- Nəs»,
Qovar cini şeytanı.

Lənət de sən özündə,
Fürsət vermə şeytana.
Şeytan bir şey edəmməz,
Allah sevən insana.

Başının üstünə qoy,
Yatanda sən,Quranı
Yuxuya getməmişdən,
Sən oxu bu duanı.

Oxu «Ayət-əl kürsü»,
Həm oxu « Kafirun»u,
Dilə uca Allahdan,
Qəbul edər arzunu.

Sənin sağlamlığınçün,
Oxuyaram mən,"İxlas",
Allahım özü səni,
Şeytandan edər xilas.

Birdə oxuyaram mən,
"Mubəmməd" surəsini,

Dilərəm Allahımdan,
**(Muhəmməd hörmətinə)**
Özü qoruyar səni.

Sən qorxudan çıxarsan,
Hüzur olar içində,
Şeytan özü yıxılar,
Qanlı tərin içndə.

Gecəni rahat yatıb,
Səhər gümrah durarsan,
Şeytan tari- mar olar,
**(İNŞƏALLAH)**
Sənsə qalib olarsan.

***23-01-2023***

## NƏDƏN? AY ANA

Yollara baxıram , yollar uzanır,
Gözümə görünmür bir kimsə, bəndə.
Asta külək əsir,qulaq asıram,
Səndən bir xəbər gətirə bəlkə.

Ürəyim yenədə sözlə doludu,
Xəyalda danışıb ,gülürəm sənlə.
Deyirəm ay ana kaş ki nə ola,
Bircə yol qapımdan girəsən yenə.

Kaş ki uşaq olam yenə ay ana,
Kaş ki dizlərinə qapana biləm.
Biri daş atanda yenədə mənə,
Qaçıb qucağına sığına biləm.

Yenə də bir işə başlayanda mən,
Məsləhət almaqçün, yanına gələm.
Başım ağrıyanda dinləyib səni,
Şirin sözlərini məlhəmim biləm.

Dünyanın çatarı çatmazı ilə,
Ağaran saçına toxuna biləm.
İnciyib , kimsədən yenə küsəndə,
Həlim sığarınla ovuna biləm.

Harda çadralı şəxs görsəm uzaqdan,
Urəyim çırpınır, bəlkə o, sənsən.
Yenədə həsrətin qəlbimə dolub,
Niyə yuxumada gəlmirsən,Nədən?

Ehtiyacım vardı şirin sözünə,
Barı bircə dəfə yuxuma gir, sən.
Nə vaxtdır həsrətəm gözəl üzünə,
Niyə yuxumada gəlmirsən,Nədən?

Qumruyam, mən yaman darıxdım sənsiz,
Gözlərim yaş süzür, dodaq nəğməsiz,
Hər şeyə baxıram hissiz, həvəssiz,
Yaşaya bilmirəm ay ana sənsiz .
Yaşaya bilmirəm axı mən sınsiz.

***04-11-1999***

# VÜSALI GƏTİRRƏM SƏNƏ

***(Bacım Şərqiyyəyə ithaf edirəm)***

Səndən uzaqdayam,mən neçə ildi,
Sənin həsrətinlə,göz yaşım seldi.
Yenədə bu gecə,yuxum çəkildi,
San ki, qəlbim durub indi atmayır,
Vüsal yox, həsrətin sonu çatmayır.

Sən mənimən əziz, şirin payımsan,
Şəfəqli , Günəşim, nurlu Ayımsan.
Sən mənim bacım yox, san ki, anamsan.
Ana çağırıram, ünüm yetməyir,
Vüsal yox,həsrətin sonu bitməyir.

Gözlərim yenədə yola dikildi,
Gəlmədin, əyildi,qəddim büküldü.
Gözlərimdən süzdü, leysan töküldü,
Sən yada düşmüsən, gözüm yatmayır,
Vüsal yox, hicranın sonu çatmayır.

Mənim anlayanım, düyanım sənsən,
Əlimdə açdığım, Quranım sənsən.
Ürəyi mənimlə vuranım sənsən,
Sənə uzadıram əlim çatmayır,
Vüsal yox həsrətin sonu bitməyir.

Yenə yuxum qaçıb,bu gecə yarı,
Nə oıar, yola çıx, gəl bizə sarı.
Gəl ki, qoy ərisin həsrətin arı,
Çağırıram bacı.. Səsim titrəyir,
Neynim ki,hicranın sonu bitməyir.

Gəl qəlbimin dostu,başımın tacı,
Gəl əziz təbibim, dərdim əlacı.
Gəl duyuram sənə mən ehtiyacı,
Tel(e)fonda danışmaq mənə yetməyir,
Vüsal yox, həsfətin sonu bitməyir.

Ürəyim dözməyir, ta həsrətinə,
Ey ana əvəzim, lazımsan mənə.
Durub artıq,özüm gələcəm sənə,
Gəlib mən özümü sənə yetirrəm.
Vüsalla həsrəti kəsib, bitirrəm,
Vüsalı götürüb, sənə gətirrəm.

***12- 02-2023***

## GÖZƏL GƏLƏCƏKDƏN YAZACAĞAM MƏN

Ey məndən yeni söz istəyən dostlar,
Bilin ki, qəlbimdə odum, közüm var.
Hələ susmayıbdır, çağlayır təbim.
Sizlərdən ilhamı alacağam mən,
Arzu- diləklərdən yazacağam mən.

İlhamım hələ çox alışacaqdır,
Hələ çox sevgidən danışacaqdır.
Hələ çox ulduzlar sayrışacaqdır,
Vərəqə incilər düzəcəyəm mən,
Çaxan şimşəklərdən yazacağam mən.

Ah çəksəm, ahımdan qopacaq tufan,
Sevgisiz həyatı etmirəm güman.
Ey məni anlayan, ey məni duyan,
İlhamım susmayıb, coşacağam mən,
Sevən ürəklərdən yazacağam mən.

Duyğusuz qəlblərdə sevgi oyanmaz,
Günəş də sevgisiz nura boyanmaz.
Sevgisiz çiçək də açmaz, boylanmaz,
Ürəyim çırpınır, sevgidən , eşqdən,
Açan çiçəklərdən yazacağam mən.

Yazacam Vətəndən, yazacam eldən,
Qələmi mən yerə qoymaram əldən.
Yazacam ordumdan, qalib əsgərdən,
Yazacam ölməyən mərd, Şəhidlərdən,
Belə mələklərdən yazacağam mən.

Elə sarılacam dəftər- qələmə,
Azər- Türk dostluğun çəkəcəm önə.
Bir od vuracağam yağı - düşmənə,
Amalı bir olan ,qardaş xalqlardan,
Belə bir birlikdən yazacağam mən.

Sözlərimlə mən də əsgər olacam,
Düşmənin kürkünə birə salacam.
Şəhidlər qanını ondan alacam,
Bayrağım İrəvanda dalğalanan gün.
Düşmənin keyfini pozacağam mən,
Bu çərxi- fələkdən yazacağam mən.

Yazacam xalqımın mətinliyindən,
Yazacam ordumun qalibliyindən.
Yazacam rəhbərin siyasətindən,
Qalib sərkərdədən, qalib xalqımdan,
Mərd, igid ərlərdən yazacağam mən,
Qalib pələnglərdən  yazacağam mən.

Sizə söz verirəm,əziz dostlarım,
İşimi qoymaram inşəllah yarım.
Arxayın ol məndən istəkli yarım,
Yeni bir dastanmı istərsən məndən?
Günəştək zər- şəfəq saçacağam mən,
Gözəl gələcəkdən yazacağam mən.

***26-04-2023***

## ANA SÖZÜ ƏSİR DODAQLARIMDA

Dünyanə tərk etdin bu günkü gündə,
«29 Aprel» bahar günündə.
Günəş doğan zaman dan sökülәndə,
Sənsizlik ömrümü xəncər tək kəsir.
Xəyalın dolanır otaqlarımda,
Ana sözü əsir dodaqlarımda.

Qalxmışam, gözlərim dikilib yola,
Qapımdan girəsən bir dəfə,nolaa...
Gələsən, bu da bir möcüzə ola,
Ürəyim yarpaq tək titrəyir, əsir,
Göz yaşım iz salıb yanaqlarımda,
Ana sözü əsir dodaqlarımda.

Yenədə sübh tezdən oyanmışam mən.
Yenədə qüssəyə boyanmışam mən.
Qələmi götürüb dayanmışam mən,
Əllərim titrəyir, qələmim əsir,
Titrəyir dəftərdə varaqlarımda,
Ana sözü əsir dodaqlarımda.

Yaş ilə dolubdur yenə gözlərim,
Səni vəsf etməyə aciz, sözlərim.
Bir bilsən nə qədər səni özlədim,
Qürbətdə qalmışam mən əsir- yesir,
Nəğmə tək xoş səsin qulaqlarımda,
Ana sözü əsir dodaqlarımda.

Sən elə kövrəkdin, sən elə incə,
Vəsf edə bilmirəm səni könlümcə.
Mən sənə borcluyam ana, ölüncə.
Qəbrini görməyə Qumrun tələsir,
Xəyalım dolanır uşaqlığımda,
Ana sözü əsir dodaqlarımda..
Ana sözü əsir dodaqlarımda..

***29-04-2023***

## AXI KÖRPƏLƏRİN NƏ GÜNAHI VAR

***(Xoşqədəmin ( 25 apreldə) verilişinə baxarkən)***

Dərk edə bilməyən gündüz, gecəni,
Məsum körpələrin nə günahı var?
Bu zülmü onlara  rəva gördünüz,
Körpə övladların siz ey atanlar.

Baxışı həmişə divarda, daşda,
Gözləri, kipriyi, yanağı yaşda.
Atasızlıq onu bıçaqtək kəsir,
Körpə ürəkləri hər an təlaşda.

Ata kəlməsini eşidəndə o,
Neçə yad sifətdə ata axtarır.

Biri övladını tumarlayanda,
Kədərə burunur,həsrətlə baxır.

Özün tanıdanda yaxın, uzağa,
Sözləri titrəyir, dodağı əsir.
Göz yaşların süzür solğun yanağa,
Qəm- kədər uşağın kələyin kəsir.

Onları qahr edir, atam yox sözü,
Bu söz alov olub , dodağın yaxır.
Yollara dikilir nəmli gözləri,
San ki, sinəsindən ürəyi çıxır.

Şairin dilində sözlər ağlayır,
Qələmi ağlayır, təbi ağlayır.
Sel, suya qərq olur al yanaqları,
Sözü ağ varağa düzür ağlayır.

Söyləyir astaca, ey zalim fələk,
Bu qədər zalimlik de,  nəyə gərək?
Övladını atan , ata- anaya,
Bizlər necə ağır bir cəza verək?
Ata - analıqdan məhrum eyləyək,
Önlara ömürlük bir cəza verək.

***25-04-2023***

## ALLAH MƏNƏ OLAR YAR

Həddindən çox işim var,
Allah mənə olar yar.
Güc verər, qüvvət verər,
Hər işim olar təyyar.

Yazaram şəhidlərdən,
İgid, qorxmaz ərlərdən.
Sevgidən də yazaram,
Yeri düşəndə hərdən.

İgid qazilərim var.
Qorxmaz əsgərlərim var.
Subaylarım toy edər,
Körpələrim doğular.

Onların toy günündə,
Toyunda, düyünündə,
Yad olar şəhidlərim,
Oyanar mənim təbim.

Məndə belə yazaram,
Ölməyir ki, Şəhidlər.
Nə qədər ki, bu xalq var,
Yaşayacaq ,Şəhidlər.

Qümru körpə uşaqlar,
Yenicə doğulanlar,
Şəhidlərin adını,
Şərəflə daşıyarlar.

***01-11-2022***

# POEMALAR



# ŞAİRLƏR BİR MƏLƏKDİR

## ŞƏHİD KİMDİR

Şəhid kimdir?
Zirvəsində qartal süzən uca bir dağ.
Şəhid kimdi?
Zəfər günü yüksəldilən ,
Heç bir zaman əyilməyən ulu bayraq.
Şəhid kimdir?
Himn oxunan həmin anda,
Əllərini sinəsinə sıxıb duran,qoca, ahıl,cavan,
uşaq.
Şəhid kimdir?
Vətən üçün hey alışan,heç sönməyən,
uca məşəl,yanar çiraq.
Şəhid kimdi ?

Başı çənli,əzəmətli Mrov dağı,Fizulidən,
Cəbrayıldan,Qubadlıdan,
Zəngilandan üz aşağı,
Dşmənləri it tək qovan!
Öz canını, öz qanını qurban verib,
otuz illik,əsir olan torpaqları,
Düşmənlərdən geri alan!
Şəhid kimdi?
Vətənini candan sevən,
Arzuların,gələcəyin, Vətəninə qurban verən!
Əyilməyən amalının arxasınca,
İnad ilə, qorxmaz ,gedən,
Ölümüylə ölməz olan!
İgidlikdən xəbər verən,
Öz canını el yolunda qurban verən,
«Var olsun millətim,sağ olsun Vətən»
Son nəfəsdə belə deyən!
Şəhid kimdi?
Yazılmamış bir ağ varaq,
Şəhid olub bu dünyadan köçsə belə,
Hər bir zaman,hər bir yerdə ruhu ilə,
yanımızda olan qoçaq.
Şəhid ruhu bu dünyada,
Sevdikləri kəslər üçün,
Bir and yeri, ziyarətgah.
Şəhid kimdir?
Bizim üçün əziz insan.
Xalq yolunda öz canını verən qurban.
Gələcəyə yol göstərən,
Bizim üçün ümid, inam!
Şəhid bizim baş tacımız.
Vicdanımız, amalımız.
Şəhid bizim həm atamız,

Həm bacımız, qardaşımız.
Şəhid bizim öz balamız.
Şəhid bizim qəlb acımız.
Şəhid kimdir?
Şəhid bizim qürurumuz,canımızdır.
Şəhid bizim uğurumuz,
Öz adımız,andımızdır.
Şəhid bizim vuqarımız,
Ünvanımız,
Şəhid bizim.
Şirin,acı anımızdır!
Şəhid kimdir?
Mərd ərənlər,qorxmaz ərlər.
Şəhid kimdir?
Mərd zabitlər,igid nərlər.
Mərd genrallar,mərd əsgərlər.
Şəhid kimdir?
Ölməz ərlər!
Deməyinki ölüb onlar,
Dönüb mələk olub onlar.
Yaşayacaq hər bir zaman,
Ürəklərə dolub onlar.
Onlar Vətən fədaisi,
Qoruyurlar hər an bizi.
Rahat yatın Şəhidlərim,
Unutmarıq bizlər sizi.
Ürəklərdə yer salanlar,
Can verərək yurd alanlar.
Çox sevirik bizlər sizi.
Şəhid adı gələn yerdə,
Hamı qalxsın tez ayağa.
Şəhidlərə hörmət edək,
Rəzil olsun mənfur dığa.

Şəhid bizim qalibimiz,
Şəhid bizim qələbəmiz.
Qazilərə can sağlığı,
Şəhidlərə rəhmət deyək .
Rəhbərimin təbiriylə,:-
Sevinc ilə belə deyək,
Yaşasın Azərbaycan,
Qarabağ Azərbaycandır!

***24-01-2023***



# SİNİF YOLDAŞLARIM ,ƏZİZ DOSTLARIM













Siz mənim qəlbimin dərinliyində,
Yer salıb qalmısız əziz dostlarım.
Nə qədər insan gördum,bu əlli ildə,
Siz olduz ən şirin xatirə(lər)imdə,
Sinif yoldaşlarım ,əziz dostlarım.
Uşaqlıq illəri, tərtəmiz illər.
Ötsədə nə qədər illər, fəsillər.
Yaşasaq da nə qədər xoş xatirələr,
Yenə çox əzizdir bizə o illər.
Birgə oynayardıq, deyib - gülərdik,
Biri-birimizi qardaş-bacı bilərdik.
Əlimizə düşən hər nə varıydısa,

Dostlar arasında yarı bölərdik.
Hərdən söz bir edib,dərsdən qaçardıq,
Kolxoz əriyi altda süfrə açardıq.
Hərə gətirdiyin qoyub ortaya,
Birlikdə yeyib ,sinifə qaçardıq.
Rəhmətlik Fəxrəddin ərk eyləyərdi,
Sormadan sumkama hərdən girərdi,
Bilirdi sumkamda quru ərik var,
Götürüb onları yarı bölərdi.
Qəmbər də yüyürüb onun yanına,
Kişisən bizədə ver, söyləyərdi.
Fəxrədin bizim sinifkom idi.
Butun uşaqlarla mehriban idi.
İsmayil,isa,Seyfəddin,Adil,
Əliylə, İslam da tez yetirərdi.
Birlikdə oturub verib baş- başa,
Səkkiz qardaş birgə ərik yeyərdi.
Çox mehriban idi bilirsiz anam,
Sumkamızı boş qoymazdı  heç zaman.
Qızlar bizə tez-tez gəlib gedərdi,
Ərik yığmaqda mənə komək edərdi.
Yaxın rəfiqələrim.Xeyrənsə, Ceyran
Mənlə oynamağa gələrdi (çox) zaman.
Bir dəfə paltar tikirdi anam,
Mənlə dərs yazmağa gəlmişdi Ceyran.
Anam təzə don tikmişdi mənə,
Donumu geymişdim mən də əynimə.
Mənim donum xoşuna gəldi  Ceyranın.
Nə gözəl tikmisən Atikə xala,
Birinidə mənə tik ,axı nə olar.
Anam bir donda tikdi Ceyrana,
Hazır olan kimi geydirdi ona.
Donu geyinsə də o, sevinmədi,

Qaşların çataraq, boynunu əydi.
Anam tez soruşdu, nə oldu qızım?
Yoxsa ki, donundan gəlmədi xoşun.
Ceyran göz ucuyla baxdı anama,
Sonrada baxaraq mənim donuma,
Çiynini oynadıb ,məni göstərdi,
Niyə mənim cibim yox Atikə xala,
Cib tikmisən ax, onun donuna.
Anam gülümsəyib, Ceyranı süzdü,
Sözlərə qənd qatıb, sozləri düzdü.
Bir azca dayanıb, sükut eylədi,
Ceyrana baxaraq, belə söylədi.
Sənə cib tikmədim bilərək özüm,
Bir cibdən yeməyi öyrənin qızım,
Dedim,  dostluğunuz çox möhkəm olsun.
Payı bölüşməyi öyrənin qızım.
Ceyran da gülərək , başını əydi,
Başa düşdüm xala, astaca dedi.
Neçə illər gəlib keçib o vaxtdan,
Bizim dostluğumuz çıxıb sınaqdan.
Davam eyləyirik biz bu dostluğu,
Allahım pozmasın dostluğumuzu.
Deyəsən baş alıb mən yenə getdim,
Mövzuya qayıdım, mən davam edim.
Xəyallarım yenə xeyli uzaqda,
Atalı, analı olduğum  vaxtda.
Yadıma düşübdü,qayğısiz çağım,
Qələmim titrəyir, əsir varağım.
Həə,mövzuya qayıdım,dönum mən daha,
Yeri yox mövzunu çox uzatmağa.
Sizlərə söyləyim bizim qızlardan,
Biri- birindən gözəl qaragözlərdən.
Buraxdım, dartındı mövzunun oxu,

Payı bölüşməkdən deyirdim axı,
Yerdə qalan payda olardı bizim.
Bacı kimi olan bu onca qızın.
Oturub birlikdə onu yeyərdik,
Mehriban, qayğısız biz böyüyərdik.
Xeyrənsə, Səkinə,Nəcibə, Gülan,
Xədicə ,Eminə,Fatma və Ceyran.
Bir partada oturardıq Xanım ilə mən,
Bizim sinif uşaqları, çox da mehriban.
Bu dostluğa hamı olardı heyran.
Bir azca dəcəl idi bizim uşalar,
Şirin xatirədir həmin o anlar.
Hərdən də sözləşib qaçardıq dərsdən,
Lətif m(ü)əllimin üzü yanardı hirsdən.
Sinifdə bir uşaq var qalanı hanı?
Zülfüqar müəllim hirsilə çığırardı,
Əsəbləsəndə onun qaçardı qanı.
Bu uşaq kim idi, söyləyim sizə,
Atası m(ü)əllim idi , dərs deyib(di)bizə.
Bəli müəllimin oğlu idi bu,
Bizim İsmayıldı,bildiniz yəqin,
Zülfüqar dayısıydı,məktəb drektoruydu,
O da dayısına hörmət qoyurdu.
İsmayıl onunçün qarışmır(dı)ki, bizə
Birdən dayısıyla gələr üz- üzə.
Oturub sinifdə, təkcə qalardi,
Bizlə olmadı deyə məyus olardı.
Drektor bizləri danlayan zaman,
Dinməzcə baxardı o, susub qalardı.
Nə isə deyəsən çox uzattım mən,
Müəllimləri qatım mövzuya həmən.
Görüm kimlər qalıb, yadımda mənim,
Adlarını sayım, xatırlayın siz,

Birinci sinifdə oxuyanda biz .
İlk müəllimimiz olub bizim İsmixan,
Heç zaman çıxmayıb inan yadımdan,
Bir dəfə sinifə girməmişdim mən,
İsmixan müəllim gördu məni, uzaqdan.
Yaxınlaşıb mənə gülümsəyərək,
Nə olub gözəl qızım deyə, soruşdu məndən.
Əlimi çəkərək hörülən saça,
İçimi çəkərək dedim astaca.
Atam hörub saçımı müəllim bu gün,
Saçım əyri olub, mən onun üçün,gəlmirəm dərsə,
Mən belə girərsəm sinifə əgər,
Uşaqlar saçıma baxıb gülüşər.
Baxaraq o mənim gözüm yaşına,
Sığar çəkdi həmən mənim başıma.
İncə təbəssümlə baxdı üzümə,
Dedi heç ağlama,qızım üzülmə.
Tez elə gözündən axan yaşı sil,
Kimsə sənə gülməz bunu yaxşı bil.
Gör necə yaraşır,bu saçın sənə,
Həsəd aparacaq uşaqlar sənə.
Göz yaşımı silib, tutdu əlimdən,
Sinifə apardı o məni həmən.
O vaxtdan neçə il gəlib ötüşüb,
İsmixan müəllimimdə dünyadan köçüb.
Onun yaxşılığı çıxmaz yadımdan,
Rəhmət söyləyirəm mən öz adımdan.
İkinci müəllimim olubdu Heydər,
Onuda sevirdik bizlər nə qədər.
Vəli ,Lətif,Rəşid, Sülüyman,
Zülfüqar,Abdulla,Teymur və İmran.
Bəlkə də yenə var ,çıxıb yadımdan.
Bağışlasın adını əgər yazmasam.

Söylədim sizlərə Qoşa-Dizədən,
Səkkiz il bu kənddə oxumuşam mən.
Bizə qələm tutaraq,hərif öyrədən,
Bütün müəllimlərimə rəhmət deyirəm.
**Həə...**
Sizlərə söz açım indi Babəkdən.
İki il Babəkdə oxumuşam mən.
Burdada çox gözəl dostlarım olub,
Müəllimlərimmdə çox mehriban olub.
Sayım uşaqların bir- bir adını,
Düşünüb oyadım mən yaddaşımı.
Nahidə,Sədaqət,Rəfiqə ,lalə,
Zeynəb,Xəzangül,Gülşən,Ələviyyə,
Müşkünaz,Yasəmən, Nigar,Rumiyyə,
Xədicə,Nəcibə,Xanım, bir də mən ,dörddə Səkinə.
Bəlkə də kimsələr çıxıb yadımdan,
Üzür istəyirəm mən öz adımdan.
Hamınıza hörmət bəsləmişəm mən,
Hörmətlə anmışam sizləri hərdən.
Oğlanlardan görüm kim yadda qalıb,
Qocalıq yetişib,zehnim korşalıb.
Şirzad,Oruc,Nazim,iki Məhərrəm.
Qəmbər,Azər,İki Hüseyin,Cəfər,
Qadir,İsa,İsmail daha da kimlər?
Bəlkədə kimisə demədim, qalıb,
Nə isə bu qədər yadımda qalıb.
Burdada uşaqlar mehribandı çox ,
O kənd, bu kənd bizə heç bir fərqi yox.
Həmən dostlaşmışdıq uşaqlar ilə,
Burdada dil tapmışdıq, müəllimlər ilə.
Sinif rəhbərimiz Qurban müəllim idi,
Onun xasiyyəti yumşaq, həlimdi.
Cəfərin çox gözəl avazı vardı,

Böyük tənəffüsdə o, oxuyardı.
Dinləyib hörmətlə onun səsini,
Bütün sinif onu alqışlayardı.
Səs- küyü eşidən Qulu müəllim,
Gəlib uşaqları çox danlayardı.
Qulu müəllim bizim drektor idi,
O çox sərt deyildi , mülayim idi.
Oruc ozün atib ortaya həmən,
Dil töküb , m(ü)əllimi yola salardı.
Sədaqətdi bizim sinifkomumuz,
Hormət bəsləyərdik ona hamımız.
Bir oğlan var idi, adı Ənvərdi,
Hərdən pəncərə altda o görünərdi.
Bizim sinifdə onun sevdiyi vardı,
Onun sevdiyi qız bizim sinifkom.
Bu sevgidən hamının xəbəri vardı.
Bizim sinif uşaqlari, Ənvərə çox hörmət qoyardi.
O Ənvər kimdi ki,soləyim sizə,
Allahım şair tək onu, göndərib bizə.
Ənvər Hüseyinovdur həmin o, adam.
Gözəl qələmi var yazıb, yaradan .
Sədaqətlə onun üç övladı var,
Babək şəhərində çox hörməti var.
Eee  deyəsən yendə baş alıb getdim,
Xatirələr bitməz, mən qısa edim.
Qayıdıb mövzunun üstünə gəlim,
İndi də söz açım mən, müəllimlərimdən,
Yadda qalanları sayım mən həmən.
Sabir,Rəhman,Qurban,
Qəzənfər,İmgülsüm,Faiq,
Avtandil,Ofelya,Səkinə,Arif,
Hidayət,Abbas iki də Vaqif.
Ən çox qorxduğumuz Qəzənfər müəllim.

Qəzənfər müəllimin gur səsi vardı,
Butun uşaqlar, hamı ondan qorxardı.
O, səsi eşidən ən şuluq uşaq,
Siçan yuvasını satın alardı.
Görünəndə o, dəhlizin başında,
Qaçaraq dolardıq sinifə həmən,
Dəftər kitabları tez çıxarardıq.
Onu gözləyərdik biz tərpənmədən.
Allah ölənlərə rəhmət eyləsin,
Qalanlara burdan salam söyləyim.
Bilirəm aramızdan gedənlərdə var.
Dünyasın dəyişib köçənlərdə var.
Onları hər zaman anacağıq biz,
Qəlbimizdə qoyublar hərəsi bir iz.
Sükutla onları biz yad eyləyək,
Köçənlər ruhuna salavat deyək.
Sizlərlə görüşmək mənə oldu xoş,
Aramızdan gedən olmayaydı kaş.
Əziz yoldaşlarım,əziz dostlarım.
Görüşə gəlmədim mən də əli boş.
Ötən xatirəni töküb kağıza,
Gətirdim ərməğan eyləyim sizə.
Bu görüşü təşkil edən hər kəsə,
Ürəkdən təşəkkür edirəm mən də.
Mənə zəng eyləyib, dəvət eyləyən,
Sənə də təşəkkür edirəm İsa.
1973- cü ildə,həmin o yazda,
Ayrıldıq, məktəbə əlvida dedik.
Şükür eyləyirəm uca Allaha,
Əlli ildən sonra görüşə bildik.

***12-06-2023***

# LƏTİFƏ VƏ SÜLEYMAN

*( Lətifənin ölümünə dözmədi 34 gündən sonra*
*Süleyman da  dünyasını dəyişdı )*

**(« Yazgül və Süleyman» dastanı bəllidir sizə.**
**Yazıb iki aşiq tanıt(mış)dım sizə.**
**Yazgülü çox sevib ,həmin Süleyman.**
**Ayrılığa dözməyən hımin o, cavan,**
**Yarının üstündə tapşırmışdı can.**
**Beşinci kitabımda yazmışdım onu,**
**İndiki zamanın leyli Məcnunu.**
**Əgər sizdə açsa, o dastan maraq,**
**« Mənə qərib deməyin» kitabımdan alarsız soraq»)**

Allahım icazə verərsə  mənə,
Yeni dastan yazaram sizlərə yenə.
Yazaram mən yeni iki aşiqdən,
Onlar da ayrılmadı biri-birindən.
Burdada aşıqin Süleyman adı,
O, da sevdiyindən ayrılammadı.
Lətifədir burda xanımın adı,
O, da taleyindən heç kam almadı,
Gənckən xəstə oldu, sağalammadı.
Bunlarda gənc ikən ailə qurdu,
Birlikdə çalışıb bir yuva qurdu.
Üç övlad böyütdü onlar bir yedə,
Lətifə tutuldu sağalmaz dərdə.
O, çox bezikirdi bu xəstəlikdən,
Öləm ,canım qurtara deyirdi hədən.
Bu sözləri ondan eşidən zaman,
Çox narahat olurdu sevdiyi adam.

Deyirdi ,sən ölsən mən yaşamaram,
Sənsizlik yükünü daşıyammaram.
Belə tez sən məni tərk etmə, gülüm,
Ölumunlə mənə eyləmı zülüm.
Məni sənsiz qoyub tez getmə gülüm,
Sənin əvəzinə qoy ,mən özüm ölüm.
Sən ölsən onu bil, məndə ölərəm,
Bir ay yaşamaram sənə gələrəm...
Bir neçə il belə ötdü- ötüşdü,
Lətifə yenədə yatağa düşdü.
Lətifə gah qalxır gah da yatırdı,
Xəstəlik qayıdıb, onu tapırdı.
Lətifə xəstəydi xeyli zamandı,
Süleman da ona arxa həyandı.
O, xəstə yatanda övladları da,
Pərvanətək onun başına dolandı.
Böyüdüblər onlar üç gözəl övlad,
Allah evlərini eylısin abad.
Onlarda ananı etdilər əziz,
Allah da onları eyləsin əziz.
Hə...Yenədə lətifə sizlayan zaman,
Dedi salamat qal ölürəm Süleyman.
Dedi:- balalarım sənə əmanət olsun,
Gedirəm mən,daha çatıbdı sonum.
Süleyman bu sözdən döndu “dəli”yə
San ki, nifrət etdi,o xəstəliyə.
Bir anlıq əlini yarından üzdü,
Allaha yalvardı göz yaşı süzdü.
Məni də tez apar, yaşayammaram ,
Bu ağır yükü mən, daşıyammaram.
İslanmış gözlərlə yarına baxdı,
Gözündən üzünə qanlı yaş axdı.
Qəlbində Allaha yalvarırdı o,

Ölümə bir çarə arayırdı o.
Gözünü dikərək solan yarına,
Bir də nəzər saldı övladlarına.
Yarının əlini aldı əlinə,
Bu titrək sözləri gətdi dilinə.
Sən ölmə mən necə yaşaram sənsiz,
Coşaram, həddimi aşaram sənsiz.
Göz yaşım süzülər olar bir dəniz ,
Sən ölmə nə olar, sən ölmə gülüm.
Məni yad əllərə sən vermə gülüm.
Sənsiz bu həyatda gültək solaram,
Dolaram buluda, yağış olaram.
Sənsiz qalsam əgər, dəli olaram.
Sən ölmə nə olar sən ölmə gülüm,
Ölümünlə etmə sən mənə zülüm.
Sənsiz bir dəqiqəm dönər bir ilə,
Göz yaşım çağlayar,bənzəyər selə.
Nə olar sevdiyim, gəl insaf elə,
Ölmə sən nə olar sən ölmə gülüm,
Ölümünlə mənə eyləmə zülüm.
Nə ölar Lətifə ölürəm demə,
Ürəyimi salma qüssəyə, qəmə,
Dözmərəm, mən həmən gələrəm sənə.
Ölmə sən nə olar sən ölmə gülüm ,
Məni yad əllərə sən vermə gülüm.
Lətifə güc verib özü- özünə,
İncə təbəssümlə baxdı onun üzünə,
İki damla göz yaşı axdı üzünə,
Əbədi olaraq gözlərin yumdu,
Süleyman ikiəlli başına vurdu.
Hayqırdı, ağladı saldı hay-haray,
Ağladı, uffladı eylədi ah-vay.
Sorun ki, Süleymana nə oldü?

Dostlar...Sorun ki ,
Sonunu tez verım mən bu dastanın,
Yerınə yetirdi Süleyman,andın.
Ləfifənin qırxı başa çatmamış,
Bizim qəhrəmanda tapşırdı canın.
Bu da, bu həyatda olmuş hadisə,
Mən də yazıb onu çatdırdım sizə.
Bilin ki, Süleyman dayım oğludur.
Yazdığım bu dastan səhih, doğrudur.
Bunlar yaşayıblar Qoşa-Dizədə ,
Tanıtdım onları artıq sizə də.
Həyatda onların üç övladı var ,
Dilərəm onlara Allah olsun yar.
Yazdım düz ilqardan mən eylədim bəhs,
Vəfa, etibardan mən eylədim bəhs.
İki sevən yardan mən eylədim bəhs,
Oxuyub , nəticə çıxarsın hər kəs.
Qumruyam, dastanı burda bitirdim,
Oxucularım onu sizə yetirdim.

***Allah rəhmət etsin, bu sevənlərə,***
***Onların ruhuna səlavat söylə.***

***12-10-2023***

## İNAN YARIM

Yalan sözə uyan yarım,
Məni çaşqın sanan yarım,
Qısqanclıqdan yanan yarım.
Şıltaqlığım olsa belə,
Cığırımdan çıxmamışam.
Səndən başqa bir gözələ,
Özgə gözlə baxmamışam.
İstəyirsən sən inanma,
İstəyirsən inan yarım.

Uydun əğyarın sözünə,
Baxmadın birdə üzümə.
Qurbanam ala gözünə,
Arxayınam mən özümə.
Coşan bulaq olsam belə,
Axar su tək axmamışam.
Səndən özgə bir gözələ,
Özgə gözlə baxmamışam.
İstəyirsən sən inanma,
İstəyirsən inan yarım.

Bağışla gər ki, gərmişəm,
Bəlkə qəlbinə dəymişəm.
Sevgi dolu ürəyimi,
Sevərək sənə vermişəm.
Yağan bulud olsam belə,
Şimşək olub çaxmamışam.
Səndən başqa bir gözələ,
Özgə gözlə baxmamışam.
İstəyirsən sən inanma,
İstəyirsən inan yarım.

Sənlə yol yoldaşıyam,
Sən mənə söylədin ki,
Keçmişimdə qalmısan.
Axı necə unutdun?
Mənə əziz olmusan.
Ürəyim məndə deyil,
Onu məndən almısan.
Sevgi nəğmələrini,
Qulağıma çalmısan.
Ruhumu məndən alıb,
Yanar oda salmısan.
Necə keçmişdə qalım?
Sənlə yol yoldaşıyam.
Qəlbində nəğmə çalan,

Könlünün sirdaşıyam.
Bircə sözdən inciyib,
Araya küsü salmısan.
Birdə mənə söyləmə,
Sən keçmişdə qalmısan.
Onu bil ki, mən sənlə,
Birlikdə qocalmışam.
Mənimlə keçirdiyin,
O gözəl aylar, illər.
Dil açıb pıçıldayan,
O şirin xatirələr.
Yadına salar məni,
İstəməsən də əgər.
Xəyalım yanındadır,
Ömrünün hər çağında.
Xəyallarım gəzəcək,
Sənlə sevgi bağında.
Gözlərini yumanda,

Gözünə dolacağam.
Sən məni düşünərək,
Mənimlə qalacaqsan.
Titrəyəcək ürəyin,
Buludtək dolacaqsan.
O nəmli gözlərinlə,
Yoluma baxacaqsan.
İstəməsəndə yenə,
Sən məni anacaqsan.
Ötüb keçən günləri,
Yadına salacaqsan.
Onda mənim yoxluğum,
Yandıracaqdı səni.
Yenə mənim həsrətim,
Yandıracaq sinəni.
Bunu yadında saxla,
Ey könlümün həmdəmi.
Heç zaman unudammaz,
Qəlbən sevən sevəni.
O keçən xatirələr ,

Mənsiz buraxmaz səni.
Sevənləri ayırar,
Ancaq ki ölüm dəmi,
Birdə mənə söyləmə,
Keçmişimdə qalmısan.
Ömrümün hər anında,
Sən mənimlə olmusan.
Necə keçmişdə qalım?
Sənlə yol yoldaşıyam.
Ürəyinin istisi,
Gözlərinin yaşıyam.
Gəncliyinin dostuyam,

Qocalıq yaddaşıyam.
Qəlbində yatan sevgin,
Ömür gün yoldaşınam.
Qırx yeddi il yol gələn,
Sənin yol yodaşınam.

## ŞAİRLƏR BİR MƏLƏKDİR

Şair təbi gələndə,
Çəkilir bir qırağa.
Qələmi ələ alır,
Sanki dönür uşağa.
Sözləri yağış kimi,
Çiləyir ağ varağa.
Bulud kimi boşalır,
Şair yazır ağlamır.
Toxunmayın şairə,
Şair dastan bağlayır.

Şair təbi coşanda,
ilhamı çağlayanda.
Gördüyü hadısıyə,
Bir dastan bağlayanda.
Qəlbi qırıq bir uşaq ,
Anasın  ağlayanda.
Şair olammır mətin,
Şair yazır ağlayır.
Toxunmayın şairə,
Şair dastan bağlayır.

Şair qəlbi daş deyil ,
Yup-yuxadır ürəyi.

Sözləri sərt desədə,
Tər-təmizdir diləyi.
Şairlər seçilmişlər,
Onlar Allah mələyi,
Xeyiri şər əyəndə,
Şair dözmür ağlayır.
Toxunmayın şairə,
Şair dastan bağlayır.

Şəhidlərin atası,
Ələ bayraq alanda.
Ağı deyib analar,
Baş daşını qucanda,
Nalə çəkib ahutək,
Balasın ağlayanda,
Şair ürəyi dözmür,
Şair yazır, ağlayır.
Toxunmayın şairə
Şair dastan bağlayır.

Udqunan ataların,
Gözündə yaş görəndə.
Qardaşını itirən,
Ağlar qardaş görəndə.
Bircə ilin içində,
Ağaran baş görəndə.
Şair olammır mətin ,
Şair yazır, ağlayır,.
Toxunmayın şairə.
Şair dastan bağlayır.

Şairlər həm ərköyün,
Həmdə ki, ürkək olur.

Acı bir söz desələr,
Solmaz bir çiçək olur.
Şairlər dəymə-düşər,
Şair çox kövrək olur.
Elin dərdini yazır,
Şair ellə ağlayır.
Toxunmayın şairə,
Şair dastan bağlayır.

Qəlbi incədir şair,
Dəyməyin qəlblərinə.
Allah deyəni deyir,
Toxunmayın təbinə.
Mal-mülkdə gözləri yox,
Tapınırlar Rəbbimə.
Allahın vergisiylə,
Şair coşur, çağlayır.
Toxunmayın şairə,
Şair dastan bağlayır.

Gənclərin sevgisindən,
Sevinc ilə bəhs edir.
Körpələr qəhqəhəsin,
Eşidəndə sevinir.
Vətənin qələbəsin,
Qürur ilə vəsf edir.
Sevincdən yazan zaman,
Şair gülür ağlamır
Toxunmayın şairə
Şair dastan bağlayır.

Şairlər bir çiçəkdir,
Sərt qayada bitəmməz.

Şairlər bir mələkdir,
Ona kimsə dəyəmməz.
Şair kövrək olsada,
Onu kimsə əyəmməz .
Şair gördüyün yazar,
Şair «ozan» deməkdir.
Toxunmayın onlara,
Şairlər bir mələkdir.
Toxunmayın onlara
Şairlər bir mələkdir

## MƏNİ DİNDİRMƏYİN YAZDIĞIM ZAMAN

***(Bir neçə dətə şeir yazdığım zaman nəvələr hərə bir dəfə gəlib suallarla məni narahat edirdilər mən də onlara hirslənib dedim ki, nolar şeir yazanda məni dindirməyin. O ,sözdən sonra bu şier yarandı.)***

Hərdən sustalıram xəstələr kimi,
Qələmə sarılıb gəlirəm cana.
Anamdan yazıram ya Vətənimdən,
Deyirəm can qurban Azərbaycana.

Qələmi əlimə aldığım zaman,
Dəftəri qarşıma açdığım zaman,
Dəyişib dönürəm sanki,»dəli» yə
Məni dindirməyin yazdığım zaman.

Birdən dəyişirəm fəsillər kimi,
Susaraq baxıram səfillər kimi.
Nə olar təbimin coşduğu zaman,
Narahat etməsin bir kimsə məni.

Ürəyim çırpınır ləpələr kimi,
Gözlərim su tökür səpələr kimi.
Bürüyür dərd, kədər, qəm-qüssə məni,
Gərək dindirməsin bir kimsə məni.

Bəzən bir gözəli vəsf eyləyirəm,
Bir igid oğlana tuş eyləyirəm.
Bəzən meyvələri gətirib dilə,
Meyvə sevənlərə «nuş»eyləyirəm.

Hərdəndə qələmim küsür yazmayır,
Bəzəndə varaqlar inciyir məndən.
Hərdən həsrət çəkən gözüm ağlayır,
Yazıram saf, təmiz eşqdən hərdən.

Bəzən at oynadıb igidlər kimi,
Deyirəm, kaş öləm şəhidlər kimi.
Ellər xatırlasın,mən olmayanda,
Bayrağa bukülən mərd ərlər kimi.

Hərəndə yazıram mən Şəhidlərdən.
Vətənçün can verən mərd igidlərdən.
Yazıram ordumun şücayətindən,
Yazıram Rəhbərin siyasətindən.

Bir ağır tayfadan, eldən yazıram,
Şirin nəğmə deyən ,dildən yazıram.
Yazram vətənin bu növrağından,
Çiçəkdən yazıram, güldən yazıram.

Yazıram qazidən, mərd zabitlərdən.
Vətənçün can verən mərd Şəhidlərdən
Yazıram xalqımın bu birliyindən,
Bir yumruq altında vəhdədiyyətdən .

Vəsf edib xalqımın övladlarını,
Deyirəm, qaytardız torpaqlarımı.
Vətənin mərd ,cəsur siz, övladları,
Cana gətirmisiz, oylaqlarımı.

Artıq vətənimdən qovuldu dığa,
Biz gedə bilərik ta Qarabağa.
Vətəni yağıdan azad eylədiz,
Bayrağı sancdınız doğma torpağa.

Artıq əsir deyil Qarabağımız!
Qələbə çalıbdı, bütün xalqımız.
Orda dalğalanır bayraqlarımız,
Baxıb fəxr edirik bizim hamımız.

Rahat yat Şəhidim, var ol əsgərim,
Var ol vətənsevər, vətənpərvərim.
Dünyaya göstərdik hünərimizi,
Var olsun ordumuz,qalib Rəhbərim.

Qələmi əlimə aldığım zaman
Dəftəri qarşıma açdığım zaman,
Dəyişib dönürəm sanki dəliyə,
Məni dindirməyin yazdığım zaman.

***26-12-2022***



# MƏĞRUR GƏZƏRƏM

## AĞ XALATLI MƏLƏKSƏN



## HƏKİM ƏSGƏROVA RƏNA AYDIN QIZI

*Həkim Əsgərova Rəna Aydın qızı 1978 - ci ildə Naxçıvan şəhərində anadan olub. Naxçıvan şəhər 7 saylı tam orta məktəbinin 11- sinfini bitirib, elə həmin ildə də Az TU - nin nevrologiya fakultəsinə qəbul olub. Universiteti müvəffəqiyyətlə bitirib. Evlidir, iki övladı var. Hal-hazırda*

***Buzovna qəsəbəsində yerləşən SKRM- inin nevrologiya şöbəsinin şöbə müdiridir .***

***Bundan əvvəl Şağanda yerləşən pansionatda həkim kimi fəaliyyət göstərib. Bir neçə qurumlar tərəfindən diplomlarla təltif olunub. Mən də artıq səkkiz gündür Buzovnada müalicə alıram. Mən burada onun nə qədər gözəl, qayğıkeş, mehriban bir həkim olduğunun şahidi oldum.***

***Onun, burada müalicəyə gəlmiş qazilərimizə, şəhid ailələrinə necə qayğı və nəvaziş göstərdiyini gördüm. Şəhid övladlarına bir ana kimi siğar çəkir, onlara qarşı nə qədər həssasdır.***

***Bu müəssisənin çox gözəl kollektkvi var. Başda müəssiənin baş həkimi Mürsəl həkim və Rəna xanım olmaqla bütün kollektivə öz təşəkkürümü bildirirəm. Var olsun dövlətimiz, var olsun cənab ail baş komandanımız ki, belə gözəl bir müəssisəni xalqımıza bəxş eyləyib.***

## BƏYAZ DONLU HƏYAT MƏLƏYİ

Həyatda öz yerini tapmaq insan üçün ən böyük xoşbəxtlikdir.Yalnız belə olanda,adam el-obaya, yaşadığı cəmiyyətə daha çox xeyir verir, böyük hörmət qazanır.İnsanlarda özünə qarşı səmimiyyət, xeyirxahlıq hissləri oyada bilir.Dünya bu cür fədəkar insanların çiynində qərar tutub.Ötüb keçən hər gün insan ömrünə iz salır, xatirə qoyub gedir.Ömründən keçən günlərgözəl, yaraşıqlı, canlı olsada, insanın qəlbi, urəyi adamlarla münasibətdə mehriban , isti olur.Allahın bəxş etdiyi ömrü hərə bir cür yaşayır. Uşaqlıq illəri təlatümlü keçsə də , yurd təəssübkeşliyini qəlbində yaşadan, bəyaz donlu həyat mələyinə çevrilən gənc, istedadlı həkim Əsgərova Rəna xanım Aydın qızından söz açmaq istəyirəm.

O,1978- ciildə Azərbaycanımızın ürəyi olan Naxçıvan şəhərində dünyaya göz açıb.Naxçıvan şəhər 7 saylı tam orta

məktəbə qəbəm qoyub və həmin məktəbin 11-ci sinfini bitirib.Uşaqlıqdan arzuladığı bu gözəl və çox lazımlı peşəyə yiyələnmək üçün böyük səy və həvəs göstərib.Bu arzu qanadında Azərbaycan Tibb Universitetinin nevrologiya fakultəsinə qəbul olub .Rəna xanım çalışqan və bacarıqll tələbə kimi bu ali tibb ocağını müvəffəqiyyətlə bitirib. Evlidir iki övladı var.Rəna xanım hal - hazırda Buzovna qəsəbəsində yerləşən SKRM- inin nevrologiya şöbəsinin şöbə müdiridir. Bundan əvvəl Sağan qəsəbəsində yerləşən pansionatda həkim kimi fəaliyyət göstərib.Bir neçə qurumlar tərəfindən fəxri diplomlarla təltif olunub. Məndə artıq səkkiz gündür öz həyat yoldaşımla birlikdə Buzovnada müalicə alıram.Bizimdə həkimimiz Rəna xanımdır .Mən burada onun nə qədər gözəl, qayğıkeş, mehriban bir həkim olduğunun şahidi oldum və bir yerli kimi onunla qürur duydum. Onun, bura da müalicəyə gəlmiş qazilərimizə, şəhid ailələrinə necə qayğı və nəvaziş göstərdiyini gördüm, şahidi oldum .Şəhidlərimizin bizə əmanət qoyduqları övladlarına bir ana kimi siğal çəkir, onlara qarşı nə qədər həssasdır.

Bu müəssisənin çox gözəlkollektivi var.Başda müəssisənin baş həkimi Mürsəl həkim və Rəna xanım olmaqla bütüm kollektivə öz təşəkkürümü bildirirəm.Var olsun dövlətimiz, var olsun cənab Ali Baş Komandanımız ki,belə gözəl bir müəssisəni xalqımıza bəxş eyləyib.

## AĞ XALATLI MƏLƏKSƏN

Əynindəki ağ xalatla,
Bənzəyirsən ağ mələyə.
Xəstələrin sızlayanda,
Yetişirsən tez köməyə.
Sən hörmətlə, nəvazişlə,
Yanaşırsan şəhidlərin,

Qəlbi sınıq ailəsinə.
Dümağ saçlı analara,
Kövrək , incə gözəllərə,
Burda yatan qazilərin ürəyinə,
Məhəbbətlə nur saçırsan.
Ürkək, küskün körpələri,
Ana kimi sən qucursan.
Xoş rəftarın, təbəssümün,
Hər tərəfə işıq saçır.
Səni görən xəstələrin,
Üzlərində ümüd, inam çiçək açır.
Əllərində şəfa vardı,
Bunu artıq hamı bilir.
Səni görən xəstələrin,
Sanki həmən dərdi "dinir".
Ümüd dolu gözləriylə,
Pasentlərin sənə baxır.
Sənin gülər gözlərindən,
Məlhəm yağır, şəfa axır.
Burda olan qazilərə,
Həm həkimsən, həm anasan.
Nur paylayan , şəfa saçan,
Bir mələksən , bir sonasan.
Dostlar sizə mən tanıdım ,
Belə gözəl bir həkimi.
S K R M - ində,
Nevrologiya şöbəsində,
Rəna adlı baş həkimi.
Sən mənimdə pis günümdə,
Xızır kimi həyan oldun.
Neçə dərdim üzə çıxdı, bəyan oldu.
O, şəfalı əllərinlə,
Sən mənə də şəfa verdin.

Allah səndən razı olsun,
Qumru Qüdrət belə dedi; -
Təşəkkürüm vardı sənə,
Qəbul eylə Rəna həkim.
Təşəkkürüm vardı mənim,
Bu müəssisənin rəhbərinə,
Burda olan kollektivin hər birinə.
Qoy var olsun bizim dövlət,
Şəraiti yaradaraq,
Bəxş eyləyib xalqımıza.

***Minnətdarıq hər birimiz Mürsəl həkim, Rəna həkim, həm sizlərə. Həm liderə, həkimlərə, işçilərə.***
***Bir söz ilə hamınıza .***
***16 -07-2023***

## MƏĞRUR GƏZƏRƏM

Bir qazi öz yoldaşıyla hava almaq üçün parka tərəf gedirdi. Qazi arabada oturmuş, yoldaşı isə onun arabasının yanınca gedirdi. Bunlar yolu keçərkən iki nətər onlara baxa-baxa bir qadın yanındakı o biri qadına deyir, zavallı o əlilinən nə edəcək, bu böyük dərd ilə necə yaşayacaq? O biri ağzıgöyçəkdə cavabında deyir, eh dözəcəkmi, bəlkə də bezib, atıb gedəcək. Bu sözləri eşidən qazi başını aşağı salır, bu sözlərdən çox rahatsız olur . Qadınlar onlara yaxınlaşanda biri “ can bala, can” deyir. O biri də doluxsunmuş hal alaraq “Allah şəfa versin” deyib keçəndə qazinin xanımı üzünü o qadınlara tutaraq. “Bu öz vətəni uğrunda bu dərdi qazanıb. Əminəm ki, Allah şəfasını verəcək. Mənə gəlincə, mən öz sevdiyimi (hələ vətən uğrunda göz qırpmadan öz canlarını, qanlarını əsirgəmiyənləri ) atanlardan deyiləm . Və arxayın olun ki ,mən

onunla gəzməyi özümə fəxr bilirəm. Sizin kimi zavallı , zalım , nadan da deyiləm. Siz bu sözlərinizlə mənim qəlbimi qırdınız. Əgər lazım gələrsə mən də Vətənim üçün öz həyat yoldaşım kimi canımı, qanımı verməyə hazıram . Mən də Azərbaycanın vətənpərvər, mərd, qorxmaz qızlarından biriyəm. Var olsun milli ordum, var olsun azad Azərbaycan!

***19-07-2023***

***Bu hekayəni eşidərkən , mən qazinin yoldaşının dilindən bir şeir yazdım elə şeirdə " Məğrur gəzərəm" adlanır .***

## MƏĞRUR GƏZƏRƏM

***(Qeybətcil qadınlara qazi ailəsinin dilindən cavab )***

Qaziyə əlildir deyən, zavallı insan,
Dalda lağ eyləyib, dalda danışan,
Üz-üzə gələndə "ürəyi yanan".
Sənin sözlərindən üzülmərəm mən,
Hər bir sözə sinə gərəcəyəm mən.

Vətən çağıranda bu igid, "aslan",
Döyüşə atıldı heç yubanmadan,
Üzü ağ çıxıb o, bu imtahandan.
Qazitək qayıdıb , gəlib yarımcan,
Onun qəhrin çəkib dözəcəyəm mən.

Bizə tənə vuran ey daş ürəkli,
Qəlbini sındırma sevən mələyin.
Eşit bunu sənə bəyan eyləyim,
Mən alqışlayıram , onun əməlin,
Odur ki, onunla məğrur gəzirəm.

Dərddən əyilmərəm, vardı dözümüm,
Xoşbəxt sayıram mən onla özümü.
Bir loğman olaram ona mən özüm,
Hər bir çətinliyə taparaq çözüm,
Kədərin belini əzəcəyəm mən.

Ürəkdən sevmişəm, divanə kimi,
Yanaram oduna pərvanə kimi,
Onu əzizlərəm  əmanət kimi.
Elə bərkimişəm piranəyəm mən ,
Demə ki yorulub, bezəcəyəm mən.

Sevmişəm, sevgimin yolunda bilin,
Yanıb kül olaram, soyumaz külüm.
Bizdən uzaq dayan, uzar ol, zalım,
Demə ki göz yaşı süzəcəyəm mən,
Elə məğrur-məğrur gəzəcəyəm mən .

Sevən bir anayam, övladlarım var,
Həm də fəxr edirəm igid yarım var.
Yoldaşım İnşəllah tezcə sağalar.
Əziz Şəhidlərə rəhmət deyirəm.
Allahdan qazilərə şəfa dilərəm,
Qazi yoldaşıtək məğrur gəzəcəm.

***19-07-2023***

## YAŞAYA BİLMİRƏM

Gözlərim yol çəkir,  iyə gəlmirsən,
Gəlib qəm- kədəri niyə silmirsən?
Sənsiz ölərəm mən, niyə bilmirsən
Yaşaya bilmirəm axı mən sənsiz,
Dünyaya baxıram hissiz,həvəsziz.

Qulağım qalıbdı,qapıda yenə,
Bəs niyə sən « daşa» dönmüsən?-yenə.
Bu qədər gəl zülüm eyləmə mənə.
Yaşaya bilmmirəm axı mən sənsiz,
Ya bir xəbər göndər,ya göstər bir iz.

Mənim bu halımı görən, ağlayar.
Gəlməzsən ah-naləm sinə dağlayar.
Ölərsəm gözümü yarım bağlayar ,
Yaşaya bilmirəm axı mən sənsiz,
Nə edim olmuşam sənsiz səbirsiz.

Sən qatil olarsan, ölsəm mən əgər,
Bu qədər qəm çəkmək bəsdi ta yetər.
Qayıt gəl, bu « dəli» hicranı bitir,
Qayıt gəl sevgilim, qayıt gəl yetər.
«Dəli»yə dönürəm səndən xəbərsiz,
Yaşaya bilmirəm axı mən sənsiz.

***18-03-2017***

# SEVİNDİM BACI

*( Yaxın qonşum,Gülnara)*

Yenə təbim coşdu, səsin gələndə,
Yenə nəğmə qoşdum, halın biləndə.
Səninlə danışıb, deyib- güləndə,
Qəlbimdən qövr etdi, sevincim bacı.
Sevincdən süzüldü gözümün yaşı.

Mən ayrı düşmüşdüm, neçə il səndən.
Səndə, yaşamısan xəbərsiz məndən.
Yenidən danışıb, olanda həmdəm,
Birgə ata bildik həsrət daşını,
Sevincdən axıtdım gözüm yaşını.

Bir ürkək ceyran tək şəkildən baxdın,
Üzünü görmürdüm,sənin nə vaxtdı,
Çağladı gözümdən bir leysan axdı,
Süzüldü andırdı, yaz yağışını,
Sevincdən süzüldü gözümün yaşı.

Allahın izniylə, görüşdük yenə,
Sevimli bacımı yetirdi mənə.
Şükür eyləyirəm mən dönə- dönə,
Bahara çevirdi Allah qışımı,
Qismət etdi mınə, gördüm bacımı.
Sevincdən axıtdım, gözüm yaşını.

***22-08-2016***

## AĞ BƏNİZLİ, AYBƏNİZİM

***( Azərbaycan xalq artisti Aybəniz Haşımovaya)***

Ağ çiçəyə incə dedin,
Açılmamış qönçə dedin.
Mən də sevinc ilə dedim,
Özün ondan da incəsən,
Səhnəmizdə bir incisən.

Gözün ulduz tək sayrışır,
Gülüş sənə çox yaraşır.
Geyinmisən bu gün yaşıl,
Özün tüldəndə incəsən,
Səhnəmizdə bir incisən .

Məhəbbətə əzəl dedin,
Arada bir qəzəl dedin.
Ağ çiçəyə gözəl dedin.
Özün güldən də incəsən,
Səhnəmizdə birincisən.

Dedin tərsən ağ çiçəyim.
Sevinclə doldu ürəyim.
Mən də dedim, ay mələyim,
Özün ondan da incəsən,
Səhnəmizdə bir incisən.

Ağ çiçək tək Ağbənizlim,
Qara gözlüm,gül bənizlim.
Oxu, gözəl Aybənizim,
Özün güldən də, incəsən,
Səhnəmizdə bir incisən.

***10-08-2017***

## ATANA BƏNZƏRSƏN

Diz çöküb Allaha , səcdəyə getdim,
Mən ulu Tanrıya təşəkkür etdim.
Sən bu gün on səkkiz yaşına yetdın,
Boy atıb ,atana çatdın Əkbətim.

Şükür sən on yeddi yaşa dolmusan,
Qardaşıma bənzər igid olmusan.
Sən, Əkbərsən ya Hüseynqulusan,
Boy atıb atana çatdın Əkbərim.

Vəsf edim bilmirəm, səni necə mən,
Qaşların qaranı alıb gecədən.
Mənim qardaşımın gəncliyisən, sən
Boy atıb atana çatdın Əkbərim.

Müstəqil həyata atırsan addım,
Çalış ki, uca tut atanın adın.
Xoşbəxtlik diləməm sənə övladım,
Boy atıb atana çatdın Əkbərim.

Məktəb qurtarırsan, olsun mübarək.
Bibin sənə yazdı bunu hələlik,
Sən gir inistuta, eylərəm təbrik,
Boy atıb atana çatdın Əkbərim,
Arzu- muradına sən çat Əkbərim.

***24-04-2005***

## XOŞ GÜNÜMDÜR

Bu gün mənim ən gözəl, xoş günümdür, dostlarım,
Sevimli, ilk nəvəmin toy günüdür, dostlarım.
Bu sevinci yaşamaq qismət olub bu günə,
Sizlərlə görüşmək də rəng qatıb sevincimə.

Mənim əziz dostlarım, siz sinif yoldaşlarım,
Bu gündə bu sevinci sizlər ilə yaşadım.
Qismət olub, sizlər də qoşulun sevincimə,
Nəvəmin toy günündə təbrik söyləyin mənə.

Belə gözəl, xoş anı tarixə salmaq üçün,
Telefonları açın video çəkmək üçün.
Nəvə toyu görənlər, nəvəniz xoşbəxt olsun,
Görməyənlər üçün də, inşəallah, qismət olsun.

Hələ sizə söz açım mən Hökmüyyə nəvəmdən,
Bu gün 16 yaşın tamam eyləyir həmən.
Zəhmət olmasa, dostlar, onu da alqışlayaq,
Əl çalaraq ona da xoş günlər arzulayaq.

İsa müəllim, sağ ol, mənə zəng etdiyinçün,
Yaddaşlarda qalacaq tarix olacaq bu gün.
Əlli ildən sonra biz görüşürük bu gündə,
İkiqat sevinirəm sizləri gördüyümçün.

Gəlin, keçən günləri birlikdə xatırlayaq,
Çəkin tarixi günü, düzəldin videoçarxı.
Bizim üçün bu görüş tarix olub qalacaq,
Ömrümüzdən ən gözəl bir xatirə olacaq.

***27-06.-2023***

# YAXIN DOSTLAR TƏRLAN, CEYRAN

Qaça- qaça gəlir Ceyran,
Tez  bura gəl,deyir,Tərlan,
Bir bax sizin "Məstan" ilə,
Top oynayır,bizim  "Toplan".

Topu alıb qaçır "Toplan",
Arxasınca baxır "Məstan".
"Toplan uddu"- deyir Cehran,
Bəynu bükük baxır"Tərlan".

Bunu görən anaları,
Gəlirlər onlara sarı.
Sığal çəkib ,saçlarına,
Öyüd verir qızlarına,
Belə deyir anaları,
İnçitməyin heyvanları.

Yemək verin, əzizləyin,
Tumarlayın siz onları.
Siz ki, yaxın dostlarsınız,
Həmişə bir oynarsiniz.
Belə incik dayanmayın,
Heyvan bilmir oyun nədir,
Topu alın siz oynayın.

***21-05-2023***

## DAHA GƏLMƏYƏCƏK ANAMIN SƏSİ

Daha eşitmərəm səsini ana,
Səsin ürəyimdə, qulağımdadır.
Daha görəmmirəm , mən səni ana,
Mənzilin bizlərdən çox uzaqdadır.

Son anda çağırdın mənim adımı,
Yanında olmadım, sənə can deyəm.
Birdə eşitməkçün, səndən adımı,
Gərəkdir mən sənin yanına gələm.

Yadıma düşmüsən qürub çağında,
Bənizim günəştək saralır ana,
Günəş tələsəndə ana qoynuna,
Xəyalən gəlirəm sənin yanına.

Alışa bilmirəm sənsizliyimə,
Düşmüşəm geçənin səssiliyinə.
Özümü yanında sandığım zaman,
Ayılıb gördümki, xəyaldı ana.

Sanki mən eşitdim  anamın səsin,
Elə bil üstümə soyuq yel əsdi.
Titrədı dizlərim, titrədi əlim,
«Qumru daha dinmə, ağlama, bəsdi «,
Qulağıma gəldi anamın səsi.

***19-12-1998***

# QƏFİL GƏIƏN ZƏNG

Bir gün səhər- səhər tel(e)fon əlimdə,
Nəsə köçürürdüm, nəsə yazırdım.
Telefona zəng gəldi,baxdım ki, nömrə,
Telefonu tez açdım, san ki, hazırdım.
Sən alo söylədin, mən dedim bəli,
Salam Qumru xanım,necəsiz dedin .
Mən  tərəddud ilə yaxşıyam dedim.
Qumru tanımadın, İsayam dedin .
Tələsik söylədin tədbirimiz var.
Tədbirdə olacaq ən əziz dostlar.
Sən də dəvətlisən, sən də hazırlaş,
Səni bu tədbirdə görmək xoş olar.
Mən də soruşdum ki, nə tədbirdi ki,
Nə olub, ay İsa, xeyir işmi var?
Gülərək söylədin, unutmusan, sən?
Məndən soruşursan, niyə səbəbin,
Yaddan çıarmısan , sən unutmusan?
Unudulmaz günü bizim son zəngi,
Söylədin ki ,mənə əlli il qabaq.
Məktəbdən ayrıldıq məzun olaraq,
Əlli il ötübdü hərə bir yerdə.
Biri birimizdən düşmüşük uzaq,
Hərə bir tərəfdə başı qarışıq.
Hal -əhval soruşub almadıq soraq,
Uzaqda qalıbdı gənclik illəri.
Qət etdik ayları,çox fəsilləri,
Deyirik yığılaq bu il bir yerdə,
Birgə xatırlayaq məktəb illərin,
Bizə əziz olan o xoş günləri.
Danışıb telefonu söndürəndə sən,
Mənim kipriklərim gətirmişdi nəm.

Elə bil yatmışdım indi oyandım,
Telefonu söndürüb xeyli dayandım,
Xəyaldan sürətlə keçdi o illər,
Arxada qalıbdı nə qədər illər.
Bizlər ayrılanda sütül gənc idik,
Biz çox dəcəl idik, çox nadinc idik.
Nə oldu yorulduq, qocaldıq belə.
Bəlkə gənclikdənmi küsüb incidik?
Mən elə bilirdim dünəndi hələ,
Məktəbdə qayğısız biz gülə -gülə,
Zarafat edərdik deyib gülərdik,
Bizləri çox sevən müəllimlər ilə.
Mehriban gülərüz yoldaşlar ilə.
Məni alıb getdi xoş xatirələr,
Xəyal qanad açıb sanki rəqs edər.
Dostlarla görüşmək ümidi ilə,
Varağa düzüldü gözəl sətirlər.
Təşəkkür edirəm İsa, mən sənə,
Nə yaxşı ki sən zəng eylədin mənə.
İnşəallah gələrəm, görüşərik biz,
Sizlərlə görüşmək mənə xoş olar.
Salam söyləyirəm əziz dostlara,
Deyirəm, dostlarım uğurlar ola!..

***22-06-2023***

# MÜNDƏRİCAT


Ön söz ........................................................................ 4
Qumru Qüdrət ruhunun Könül Sevdası .................... 11
***Bütöv olsun Azərbaycan torpağı .......................... 15***
Mənim qəhrəmanım ...................................................... 15
Qarabağ bizimdir əzəli, axır ........................................ 17
Mələk sifətlisən ............................................................. 18
Bizə əmanətdir şəhid anası .......................................... 19
Məni "sənsiz" dərdə saldın .......................................... 21
Əziz şəhid bacısı ............................................................ 22
Xalqın övladıyam, vətən adıyam .................................. 24
Şəhidlərə qurban dedik ................................................ 26
Gəlmirsən gülüm ........................................................... 27
Qarabağda var qoxum .................................................. 28
Bütöv olsun Azərbaycan torpağı .................................. 29
Gözünüz aydın əziz şəhidlər ........................................ 30
Türkün mərd oğludur Ərdoğan .................................... 31
Bayraqtək ucada olsun həmişə ..................................... 32
Vətən həsrəti ................................................................. 33
Yer ağlasın, göy ağlasın ................................................ 35
Sən qalib əsgərsən, əziz şəhidim .................................. 37
Niyə gəlmirsən? ............................................................. 39
Gülərüzlü şəhidim ......................................................... 41
Şad yaşa vətən ............................................................... 42
***Məni Məcnun edib salma çöllərə ........................... 44***
Gələcəm sənə özüm ...................................................... 44
O, yar məni .................................................................... 45
Sən getdin ...................................................................... 46

Şeirlər sevənlərindir ........ 47
Sevgisi yaşar ........ 49
Gül yenə ........ 50
Səni sevdim ........ 51
Məni Məcnun edib salma çöllərə ........ 52
Dön, məni incitmə ........ 53
***Bir gözəl böyüyür ........ 55***
Qəlb sirdaşım ........ 55
Nəvəm Nəzrinə ........ 58
Allah verən mələklərim ........ 61
Şirin Əbəlfəz ........ 62
Doqquz yaşlı Könülüm ........ 63
Bizim Rəhman ........ 64
Dua et ........ 65
Pislik eyləmə ........ 66
Goşmur ürəyim ........ 67
Bir gözəl böyüyür ........ 68
Allahından qorxmadı ........ 69
Vəfa xanıma ........ 70
Mənim əziz gülbacım ........ 71
Mən tapa bilmirəm özüm - özümü ........ 73
Atam gəlini ........ 74
Deyişmə ........ 76
***Şair xalqın gözüdür ........ 78***
Məni əmin eylə ........ 78
Qəlbimə dəymişdin ........ 80
Şair xalqın gözüdür ........ 82
Gözəl qələmin var ........ 83
Dua eyləyərəm ........ 85

Nədən? Ay ana ........ 86
Vüsalı gətirrəm sənə ........ 88
Gözəl gələcəkdən yazacağam mən ........ 89
Ana sözü əsir dodaqlarımda ........ 91
Axı körpələrin nə günahı var ........ 92
Allah mənə olar yar ........ 94
***Poemalar ........ 95***
***Şairlər bir mələkdir ........ 95***
Şəhid kimdir ........ 95
Sinif yoldaşlarım ,əziz dostlarım ........ 99
Lətifə və Süleyman ........ 108
İnan yarım ........ 112
Şairlər bir mələkdir ........ 115
Məni dindirməyin yazdığım zaman ........ 118
***Məğrur gəzərəm ........121***
Ağ xalatlı mələksən ........ 121
Həkİm Əsgərova Rəna Aydın qızı ........ 121
Bəyaz donlu həyat mələyi ........ 122
Ağ xalatlı mələksən ........ 123
Məğrur gəzərəm ........ 125
Məğrur gəzərəm ........ 126
Yaşaya bilmirəm ........ 128
Sevindim bacı ........ 129
Ağ bənizli, Aybənizim ........ 130
Atana bənzərsən ........ 131
Xoş günümdür ........ 132
Yaxın dostlar Tərlan, Ceyran ........ 133
Daha gəlməyəcək anamın səsi ........ 134
Qəfil gəıən zəng ........ 135